AZƏRBAYCAN BAROMETRİ №9 (13)

Noyabr / 2020

# STM

## ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏTƏN MÜHARİBƏSİNDƏN ƏVVƏL VƏ SONRA

## ANALİTİK HESABAT



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
On üçüncü buraxılış

Noyabr 2020

# ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏTƏN MÜHARİBƏSİNDƏN ƏVVƏL VƏ SONRA

ANALİTİK HESABAT

**Müəllif:**
Aygün Yusibova

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti

Bakı - 2020

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində
4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Redaktor:**
Aqşin Məmmədov,
*filologiya üzrə fəlsəfə doktoru*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT

GİRİŞ....................................................................................................................................4

TƏDQİQATIN ÜMUMİ MƏSƏLƏLƏRİ..............................................................................................6

BÖLMƏ 1. ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ İCTİMAİ RƏYDƏ........................10

BÖLMƏ 2. AZƏRBAYCAN ORDUSUNUN ERMƏNİLƏRİN TOVUZ TƏXRİBATINA CAVAB ZƏRBƏSİNƏ İCTİMAİ MÜNASİBƏT..........................................................................................17

BÖLMƏ 3. MÜNAQİŞƏNİN HƏLLİNDƏ BEYNƏLXALQ FAKTORLAR.................................23

BÖLMƏ 4. 14 İYUL MİLLİ HƏMRƏYLİK NÜMAYİŞİNƏ İCTİMAİ MÜNASİBƏT.....................26

BÖLMƏ 5. MÜHARİBƏ ŞƏRAİTİNDƏ ƏSAS İNFORMASİYA MƏNBƏLƏRİ.........................30

NƏTİCƏ...............................................................................................................................35

ƏLAVƏLƏR...........................................................................................................................39



STM

# GİRİŞ

Bəşəri təhlükəyə çevrilmiş pandemiya dünya dövlətlərinin iqtisadi, sosial dəyər zənciri ilə yanaşı, mövcud geosiyasi nizam və dinamikaya da təsir etməkdədir. Qlobal müstəvidə siyasi və təhlükəsizlik mühitində müşahidə edilən mənfi tendensiyalar köhnə münaqişəli ocaqlarda yeni müharibələrin meydana gəlməsində də əlverişli zəmin formalaşdırır. Ona görə də lokal və regional müharibə-münaqişələr fonunda geosiyasi tarazlığın pozulması ənənəvi konfiqurasiyanın konturlarının dəyişilməsinə, yeni qlobal siyasi reallığın meydana çıxmasına səbəb olur.

Sistemli Sülh Mərkəzinin 1946-2019-cu illəri əhatə edən silahlı qarşıdurmalara dair hazırladığı hesabatda həm dövlətlərarası, həm də daxili etnik-milli əsasda, eləcə də az qala transmilli, beynəlmiləl səciyyə daşıyan müharibələr sayca və əhatə coğrafiyası baxımından 1990-cı illərdə kəskin şəkildə azalsa da, 2000-ci illərin ortalarında bu istiqamətdə yenidən artım baş verib. Son 15 ildə isə müharibələrin səviyyələrində əsas yüksəliş müsəlman ölkələrində, Şimali Afrika və Orta Şərq bölgəsində qeydə alınıb .

Mərkəzi Londonda yerləşən məhşur "YouGov" araşdırma şirkətinin iki il öncə Avropada və ABŞ-da (9 ölkədə, 9000 respondent arasında) keçirdiyi sorğunun nəticələrinə görə, Avropa və Amerika vətəndaşları dünyada sülhün təhlükədə olduğunu bildiriblər . Bununla yanaşı, maraqlıdır ki, Amerika vətəndaşlarının 64%-i, İngiltərə vətəndaşlarının isə 61%-i dünya müharibəsinin yaxın tarixdə başlayacağını düşünür. Bu baxımdan bəzi siyasi analitiklər geosiyasi şəraitin durğunluğunun postsovet məkanındakı bütün regional münaqişələri ləngitdiyini və bu səbəbdən də qlobal, regional və lokal müstəvidə qarşıdurmaların həlledici mərhələyə keçəcəyini proqnozlaşdırırlar. XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olan Ermənistan-Azərbaycan konflikti dövlətlərarası xarakterinə görə, beynəlxalq sülh və təhlükəsizliyə ciddi təhdid mənbəyi olaraq qalmaqda davam edir. Ermənistanın hərbi-siyasi proseslərin ağırlıq mərkəzini Dağlıq Qarabağdan Ermənistan-Azərbaycan sərhədinə transformasiya etməsi münaqişənin həllini mövcud hərbi-siyasi şəraiti dəstəkləyən mümkün regional və geosiyasi risklər kontekstində qaçılmaz edir. Xüsusilə də son dörd ilin hərbi təqviminə nəzər salsaq, Ermənistanın mövqelərimizin ələ keçirilməsi məqsədilə suveren ərazilərimizə hərbi təxribatları bir tərəfdən Azərbaycan ordusunun gücünü göstərirdisə, digər tərəfdən də status-kvonun saxlanılmasının və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun münaqişə zonasında gərginliyin əsas səbəbi olduğunu və münaqişənin siyasi həllinə başlıca maneə kimi qaldığını beynəlxalq ictimaiyyətə növbəti dəfə nümayiş etdirirdi. Dünyada müxtəlif araşdırma mərkəzləri bir sıra regional və beynəlxlaq məsələlərlə yanaşı, dövlətlərarası münaqişələrin siyasi, sosial və humanitar aspektlərini məhz ictimai rəy əsasında təhlil edərək mümkün təhdid və risklərin dərəcəsinə dair proaktiv proqnozlar təqdim edirlər. Ümumrusiya İctimai Araşdırma Mərkəzinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2014-cü ildə Rusiyada keçirdiyi sorğunun nəticələrinə görə, rəyi soruşulanların yarısı (56%) Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasını mümkün sayır, yalnız 14% respondent problemin silahsız həll oluna bilməyəcəyini düşünür . Rusiyanın Dağlıq Qarabağ münaqişəsində bitərəf mövqe tutmalı olduğuna inananların çəkisi 2 il ərzində (2014-2016) kəskin şəkildə azalaraq 60%-dən 36%-ə düşüb. Eləcə də sorğuda iştirak edənlərin 44%-i (2016-cı ildə) qan tökülməsini dayandırmaq üçün tərəflər arasında vasitəçiliyin tərəfdarıdır, halbuki 2 il öncə bu göstərici 25% təşkil edirdi.

Qafqaz Tədqiqat Resurs Mərkəzi (CRRC) tərəfindən 2019-cu ildə Ermənistanda aparılan sorğuda qarşıdakı 5 il ərzində Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinin mümkünlüyünü 37% respondent çox çətin hesab etsə də, 47% respondent bunun əksini düşünüb. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkünlüyünə gəlincə, sorğuda iştirak edən 43% respondent bunu mümkün saysa da, 44% respondent əks mövqe nümayiş etdirib .

Amerikanın "Gallup" Beynəlxalq Mərkəzinin ("Gallup İnternational Association") tədqiqat şirkətinin Ermənistanda apardığı sosioloji araşdırmaların nəticələrinə əsasən, sorğu iştirakçıları işsizlik, iqtisadi vəziyyət, aşağı pensiya və əməkhaqqı problemlərindən sonra Dağlıq Qarabağ münaqişəsini ölkə üçün 4-cü yerdə duran problem kimi qeyd ediblər. Belə ki, rəyi soruşulanların yalnız 26,1%-i Dağlıq Qarabağ münaqişəsini Ermənistan üçün əsas problem olaraq görüb. Sorğuda yalnız 4 ermənidən birinin Dağlıq Qarabağ məsələsini ölkənin əsas problemi sayması bu problemin erməniləri çox narahat etmədiyini göstərir.

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən fərqli

[1] *http://www.systemicpeace.org/conflicttrends.html#fig2*
[2] *https://www.independent.co.uk/news/world/world-war-iii-three-worldwide-conflict-west-western-countries-poulations-poll-russia-one-china-us-syria-uk-negative-a7513696.html*
[3] *https://wciom.ru/analytical-reviews/analiticheskii-obzor/dalekaya-vojna-rossiyane-o-perestrelkakh-v-nagornom-karabakhe*
[4] *https://caucasusbarometer.org/en/cb2019am/NK4_2/*
*https://caucasusbarometer.org/en/cb2019am/NK4_1/*
[5] *1803151.pdf*

dövrlərdə keçirilən sorğularda respondentləri ən çox narahat edən məsələlər sırasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilk pillədə qərarlaşır. Belə ki, rəyi öyrənilənlərin 73%-i Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməməsindən daha çox narahatlığını ifadə edib.

Maraqlıdır, "Gallup" Beynəlxalq Mərkəzinin bundan 6 il öncə (2014-ci il) dünyanın 64 ölkəsində (sorğuda 62398 respondent iştirak edib, hər ölkədən 1000 nəfər cəlb edilib) apardığı qlobal sorğu zamanı ümumilikdə respondentlərin 61%-i ölkələri uğrunda döyüşməyə hazır olduğunu, 27%-i isə döyüşməyə hazır olmadığını bildirib. Sorğunun digər nəticələrinə görə, Azərbaycan xalqının 85%-i vətən uğrunda döyüşməyə hazırdır. Azərbaycan vətəndaşları ölkələri uğrunda döyüşməyə hazır olan xalqlar sırasında 6-cı yerdə qərarlaşıb. Belə ki, gürcülər 76%-lik göstərici ilə 9-cu, ermənilər 72%-lik göstərici ilə 15-ci yerdə qərarlaşıb. Bir sözlə, Dağlıq Qarabağ problemi ilə bağlı müxtəlif qlobal sorğularda münaqişənin beynəlxalq təhlükəsizlik, hüquqi tənzimləmə və ədalət prinsipləri kontekstindən həlli aspektlərinə fərqli prizmalardan yanaşmalar öz əksini tapsa da, geosiyasi konyunkturun kövrək dəyişimi Ermənistan-Azərbaycan münaqişəsinin həlli ətrafında mövcud dinamik tendensiyanın və problemin hərbi-siyasi aspektlərinin sistemli və kompleks tədqiqini tələb edir.

## Ermənistanın işğalı nəticəsində Azərbaycana dəyən maddi və mənəvi ziyan

### Dağlıq Qarabağ və ətraf rayonlardakı abidə sayı

**Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki abidələr:**

901 dövlət qeydiyyatlı / 609 yerli 285 ölkə 13 beynəlxalq əhəmiyyətli

50 türbə | 67 məscid | 92 ziyarətgah | 106 məbəd
39 qala | 32 körpü | 262 xatirə abidəsi | 253 arxeoloji abidə

### Dağıdılmış məscidlərin sayı

63 tamamilə dağıdılmış məscid | 4 yararsız hala salınmış məscid

13 Şuşa | 8 Laçın | 8 Qubadlı | 12 Zəngilan
16 Füzuli | 5 Cəbrayıl | 5 Ağdam

### Dəymiş iqtisadi ziyan

*(Ümumi iqtisadi ziyan təxminən **1 trilyon dollar** və itirilmiş 300 min iş yeri)*



**Laçın** 7.099.526.500 $
**Ağdam** 6.100.107.000 $
**Füzuli** 4.742.932.050 $
**Şuşa** 4.257.474.000 $
**Cəbrayıl** 3.450.300.000 $
**Zəngilan** 3.414.170.000 $
**Kəlbəcər** 1.774.000.000 $
**Qubadlı** 1.485.627.000 $
**Tərtər** 799.295.100 $
**Qazax** 327.529.464 $
**Gədəbəy** 44.303.800 $
**Ağcabədi** 22.420.050 $
**Beyləqan** 3.812.500 $
**Ağstafa** 1.998.950 $

### Hərbi xərclər (2009-2019)

**Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər** 10.314.000.000 ₼

**Müdafiə xərcləri** 20.636.000.000 ₼

# TƏDQİQATIN MAHİYYƏTİ

Sosial Tədqiqatlar Mərkəzinin bu tədqiqatında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi, Ermənistanın 12 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhədinin şimal-qərb hissəsində Tovuz istiqamətində hərbi təxribatının doğurduğu siyasi-hərbi nəticələri və bu fonda münaqişəsinin hərbi yolla tənzimlənməsi perspektivi, eləcə də əməliyyatlar zamanı hərbi-siyasi şəraitə adekvat islahatlar ictimai rəy əsasında dəyərləndirilir. Tədqiqat çərçivəsində Azərbaycanın regionda mənəvi-siyasi və hərbi baxımdan yüksəlişini realizə edən Tovuz döyüşlərinin siyasi, hərbi və beynəlxalq nəticələrinə dair vətəndaş mövqeyinin öyrənilməsi bu istiqamətdə dövlətin Qarabağ strategiyasının perspektivliyinə və siyasi kursunun nəticəliliyinə, eləcə də təbliğat hədəflərinin əlçatanlığına effektiv təsir göstərə bilər. Sorğu-tədqiqat əsasında hazırlanmış hesabat beş müvafiq blokda əhatə olunan ardıcıl istiqamətlər üzrə klassifikasiya edilib.

Müharibə blokunda Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi, Ermənistanın son hərbi təxribatları fonunda Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin yenidən gündəmə gəlməsi və müharibə variantının ictimai-siyasi aspektləri vətəndaş rəyi əsasında qiymətləndirilir.

Hərbi-siyasi blokda Ermənistanın Azərbaycanla sərhəddə Tovuz istiqamətində hərbi təxribatına ictimai baxış, təxribatın səbəbləri və doğurduğu nəticələr, eləcə də hərbi-siyasi şəraitin yaratdığı dəyişikliklər ictimai rəy əsasında dəyərləndirilir.

Hüquqi-siyasi blokda Ermənistan-Azərbaycan münaqişəsinin həllində beynəlxalq faktorlar, eləcə də hərbi-siyasi şəraitin hökumət tərəfindən adekvat kadr islahatları ilə dəstəklənməsi ictimai rəy əsasında qiymətləndirilir.

Humanitar blokda 14 iyul 2020-ci il tarixində cəmiyyətin Azərbaycan dövlətinə və ordusuna dəstək xarakterli milli həmrəylik nümayişinə ictimai münasibət öz əksini tapır.

İnformasiya blokunda respondentlərin müharibə şəraitində əsas informasiya mənbələri və onlara etibarlılıq dərəcəsinin öyrənilməsi yer alır.

## TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Tədqiqatın məqsədi Azərbaycanın xarici siyasətinin ən önəmli prioritetlərindən olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə münasibətin ictimai rəy əsasında öyrənilməsi, xüsusilə də 12 iyul Tovuz hadisələri fonunda məsələnin hərbi yolla həlli perspektivinə ictimai baxış əsasında siyasi təhlillərin aparılması və bunun əsasında elmi cəhətdən əsaslandırılmış siyasət təkliflərinin hazırlanaraq dövlətin bu istiqamətdə nəticə yönümlü siyasətinə töhfə verilməsidir. Bu hesabat Sosial Tədqiqatlar Mərkəzi tərəfindən müharibə dönəmində keçirilən “Qarabağa qayıdış” hesabatı ilə müqayisələrin aparılmasına imkan verir. Tədqiqatda qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulub.

- Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə ictimai münasibətin öyrənilməsi;
- Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xarici siyasət konsepsiyasında həlledici rolunun və problemin həlli üzrə diplomatik fəaliyyətin əsas istiqamətlərinin vətəndaş mövqeyi əsasında qiymətləndirilməsi;
- Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində BMT-nin münaqişə ilə bağlı siyasi, hüquqi tənzimləmə fəaliyyətinin, qəbul etdiyi qərarların sülh danışıqlarında roluna ictimai münasibətin öyrənilməsi;
- Ermənistan-Azərbaycan münaqişəsinin həllində beynəlxalq faktorların mahiyyətinin və nəticələrinin ictimai rəy əsasında qiymətləndirilməsi;
- Dünyanın bir sıra dövlətlərinin və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində iştirakına ictimai münasibətin öyrənilməsi;
- Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətinin qiymətləndirilməsi və əldə edilən nəticələrin təhlil edilməsi;
- Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə 12 iyul təxribatına ictimai münasibətin öyrənilməsi;
- Tovuz əməliyyatının hərbi-siyasi aspektlərinə ictimai baxış və hərbi təxribatın ictimai rəydə doğurduğu nəticələrin müəyyənləşdirilməsi;
- Münaqişənin həllinin siyasi, hərbi, sosial, psixoloji və ideoloji aspektlərinin ictimai rəy əsasında dəyərləndirilməsi, eləcə də Tovuz döyüşlərinin Dağlıq Qarabağ münaqişəsinə gətirdiyi yeni dəyərlərin tədqiqi;
- Azərbaycanın sərhəd rayonlarında Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinə ictimai baxışın öyrənilməsi, eləcə də sözügedən sosial və demoqrafik qrupları təmsil edən respondentlərin rəyinin ümumi tədqiqat nəticələri ilə müqayisəli təhlili;

❍ Tovuz əməliyyatlarının gedişatında hökumət tərəfindən hərbi-siyasi şəraitə adekvat kadr islahatlarına ictimai münasibətin öyrənilməsi və bu yöndə gözləntilərin müəyyənləşdirilməsi;

❍ Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində Azərbaycan dövlətinin yürütdüyü strategiyanın gücləndirilməsinə, eləcə də yeni kursun əsas təbliğat hədəflərinin və rakurslarının nəticəliliyinə dair siyasət tövsiyələrinin hazırlanması;

❍ Müharibə şəraitində əhalinin əsas infomasiya əldə etmə mənbələrinin, onlara etibarının və çıxış imkanlarının öyrənilməsi, əldə edilən nəticələrin dinc dövrlə müqayisəli təhlili və düşmənə qarşı informasiya mübarizəsində daha effektiv koordinasiya sisteminin təmin edilməsinə töhfələrin verilməsi.

## TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

### 1.1. Tədqiqat əraziləri

Sorğuda respublikanın Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Qarabağ, Quba-Xaçmaz, Mərkəzi Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları əhatə edilib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə edilməyib.

Sorğuda iştirak edən respondentlərin yarısı Ermənistanla sərhəd və Dağlıq Qarabağla təmas xəttində yerləşən yaşayış məntəqələrindən seçilib. Sadalanan rayonların əksər sərhəd kəndlərində olmaqla ümumilikdə 198 yaşayış məntəqəsində sorğu keçirilib: Ağstafa, Qazax, Tovuz, Daşkəsən, Gədəbəy, Göygöl, Goranboy, Ağcabədi, Tərtər, Ağdam.

### 1.2. Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində klaster seçmə metodundan istifadə edilib. Təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilməsi hər bir vətəndaşa sorğuda bərabər səviyyədə iştirak imkanı verib.

Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 198 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib.

Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib.

Keçirilən rəy sorğusunda ümumilikdə 2376 respondent iştirak edib. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2% təşkil edir.

### 1.3. Tədqiqat metodu

Tədqiqatın keçirilməsində kəmiyyət metodundan istifadə edilib.

### 1.4. Sorğu anketi

Sorğu anketi 5 istiqamət üzrə 43-ü əsas və 10-u demoqrafik olmaqla ümumilikdə 53 sualdan ibarətdir. Suallar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılıb:

| | |
|---|---|
| **I istiqamət** | Müharibə bloku |
| **II istiqamət** | Hərbi-siyasi blok |
| **III istiqamət** | Hüquqi-siyasi blok |
| **IV istiqamət** | Humanitar blok |
| **V istiqamət** | İnformasiya bloku |

### 1.5. Sahə işi

Sorğu 2020-ci ilin avqustun 24-dən sentyabrın 9-dək olan dövrdə keçirilib. Sorğunun orta keçirilmə müddəti 19 dəqiqə 20 saniyədir.

### 1.6. Sorğunun aparılması üsulu

Sorğunun aparılmasında “üz-üzə” müsahibə üsulundan istifadə olunub. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı olan SurveyToGo-dan istifadə edilib.

### 1.7. Etik prinsiplər

Sorğu keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Belə ki, respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqqında tam məlumat verilib. Respondentlərin hər biri sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək, zəng edilən vaxt uyğun deyilsə, daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumatlandırılıb.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

### 1.8. Təlimat

Sorğunun keçirilməsində 18 intervüyer və 3 koordinator iştirak edib. İntervüyerlər üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təlimat qaydaları hazırlanıb.

İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimdə iştirak ediblər. Təlimdə keçirilən sorğunun məqsədləri, respondentlərə ünvanlanan suallar haqqında geniş izahatlar verilib. Təlim prosesində intervüyerlər tərəfindən test sorğusu da aparılıb.

**Sorğunun keçirildiyi bölgələr (%-lə)**

***Sorğuda əhatə edilmiş 102 yaşayış məntəqəsi Ermənistan Respublikası və işğal olunmuş Azərbaycan əraziləri ilə sərhəddə yerləşir.***




Tədqiqat pandemiya dövründə keçirildiyi üçün Mərkəzin əməkdaşları tərəfindən profilaktik tədbirlərə ciddi əməl edilib. Sorğudan öncə Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimdə profilaktik qaydalara əməl olunması ilə bağlı intervüyerlərə geniş məlumat verilib. Onlara sorğu zamanı tibbi maskadan, əlcəkdən istifadə, respondentlə iki metr məsafənin saxlanılması, mütəmadi olaraq əllərin dezinfeksiya edilməsi tövsiyə olunub. Əməkdaşlar qoruyucu vasitələrlə (əlcək, maska, spirt) təmin olunub. Yay fəsli olduğuna görə sorğu açıq hava şəraitində aparılıb. Digər ailə üzvlərinin bir yerə toplanması məhdudlaşdırılıb.

**1.9. Məlumatların işlənməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün Pirson korrelyasiyası və $X^2$ testindən istifadə edilib.

Nəzərə çatdıraq ki, sosial, siyasi və iqtisadi tədqiqatlarda təbii eksperiment üsulunun icrası müxtəlif xarici amillərə görə qəlizdir. Lakin bu araşdırma müəyyən dərəcədə təbii eksperiment hesab edilə bilər. Belə ki, bir sıra suallar həm 2020-ci il avqustun 24-dən sentyabrın 9-dək aparılan sorğuda (Vətən müharibəsindən öncə), həm də oktyabrın 9-dan 13-dək məcburi köçkünlərlə aparılan sorğuda verildiyindən bu, qarşılıqlı müqayisəyə imkan verir. Bununla da, müharibənin insanların fikir və baxışlarına necə təsir etdiyi öyrənilə, etibarlı səbəb-nəticə əlaqəsi qurula bilər.

**Qeyd 1:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**Qeyd 2:** Sosial təbəqə ilə bağlı sual respondentlərin özlərini subyektiv olaraq, maddi vəziyyətdən asılı olmadan hansı təbəqəyə aid etdiklərini öyrənmək məqsədi daşıyır.

# RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

## Demoqrafik göstəricilər















# MÜHARİBƏ BLOKU

## BLOK 1. ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ İCTİMAİ RƏYDƏ

Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında konstitusiyaya zidd qərarın verilməsi, eləcə də SSRİ rəhbərliyinin bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmağa çalışması ilə Azərbaycan zorən hərbi münaqişəyə cəlb edildi. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi işğal olundu. Münaqişə ilə bağlı bir sıra mühüm beynəlxalq sənədlər qəbul olunsa da, indiyə qədər onların icrası ilə bağlı real addımlar atılmayıb. Aparılan sülh danışıqlarında zaman-zaman problemin həllinə yaxınlaşmalar olsa da, Dağlıq Qarabağ erməniləri vasitəsilə Azərbaycanın ərazilərini uzun illərdir işğal altında saxlayan Ermənistanın güzəştsiz və qeyri-konstruktiv mövqeyi nəticəsində indiyə qədər münaqişənin dinc yolla siyasi nizamlanmasına nail olunmayıb. Məhz bu baxımdan dinamik dəyişikliklər mərhələsində olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına ictimai baxış mövcud geosiyasi şəraitdə münaqişənin ictimai-siyasi, eləcə də hərbi-siyasi perspektivlərinin dəyərləndirilməsi baxımından konseptual əhəmiyyətə malikdir.

### 1.1. Müharibənin yaxın tarixdə başlayacağına inam

Respondentlərin yarıdan çoxu müharibənin yaxın tarixdə başlayacağına bu və ya digər dərəcədə (56,1%) inanırsa, 39,1% ya az inanır, yaxud heç inanmır.

Nəzərə çatdıraq ki, Ermənistanın davamlı hərbi təxribatları fonunda 2020-ci ildə müharibənin daha geniş miqyasda başlayacağına 56,1% inanırdısa, məcburi köçkünlərlə bağlı keçirilən sorğuda 57,3% müharibənin başlayacağını gözlədiyini, 42,7% isə gözləmədiyini qeyd edib. Sözügedən sorğuda qadınların 47,9%-i, kişilərin 62,7%-i erməni təxribatlarının davam etməsi fonunda 2020-ci ildə müharibənin başlayacağını gözləyirdi ($X^2(1)=9.598$, $p<0.01$).

**Müharibənin yaxın tarixdə başlayacağına nə dərəcədə inanırsınız?**




Respondentlərin yaşı artdıqca onların 2020-ci ildə müharibənin daha geniş miqyasda başlayacağına dair gözləntisi də artır. 18-30 yaş arası respondentlərin 40%-də, 31-50 yaş arası respondentlərin 54,5%-də, 51 yaşdan yuxarı respondentlərin isə 63,1%-də bu gözlənti var idi.

Müharibənin yaxın tarixdə başlayacağına bu və ya digər dərəcədə inananlar bütün təhsil səviyyələri üzrə 52%-dən yuxarıdır. Ən yüksək göstərici 63,5% ilə ali təhsillilərə aiddir. Natamam orta təhsillilər arasında heç inanmayanlar digər qruplardan daha çoxdur (36%). ($X^2(6)=32.356$, $p<0.01$)

Tələbələr müharibənin yaxın tarixdə başlayacağına ən çox inanan qrupdur (23,3% "çox inanıram", 51,8% "əsasən inanıram"). Bu potensial hadisəyə müxtəlif dərəcələrdə inananlar arasında 2-ci və 3-cü yerlərdə özəl sektorda işləyənlər (67%) və ev təsərrüfatı ilə məşğul olanlar (62,5%) gəlir. İşsiz əhalinin təxminən 60%-i müharibənin yaxın tarixdə başlayacağına inanır. Təqaüdçülər (9,7% "əsasən inanmıram", 37,8% "heç inanmıram") və evdar qadınlar (11,4% "əsasən inanmıram", 35,8% "heç inanmıram") arasında inanmayanlar digər qruplara nisbətən daha geniş yayılıb.

Müharibənin yaxın tarixdə başlayacağına ən çox inananlar Yuxarı Qarabağdan olan respondentlərdir (43,7% "çox inanıram", 25% "əsasən inanıram"). Lənkəranda isə ən aşağı göstərici qeydə alınıb - 34,5%. Qərb zonası olan Gəncə-Qazaxda 53,3% respondent müharibənin yaxın tarixdə başlayacağına müxtəlif dərəcələrdə inanır. İnanmayanlar arasında Şəki-Zaqatala ilk mövqedədir (9,8% "əsasən inanmıram", 45,9% "heç inanmıram"). Başqa sözlə desək, bu iqtisadi rayondan olan respondentlər arasında müharibənin yaxın tarixdə başlayacağına

müxtəlif dərəcələrdə inanmayan insanların sayı cəmi 40 nəfərdir.

Qaçqın əhali arasında müharibənin yaxın tarixdə başlayacağına bu və ya digər dərəcədə inananlar daha çoxdur - 65,3%. Digər qrup üçün bu göstərici 54,7% təşkil edir. “Heç inanmıram” variantını qaçqın statusu olanların 20,2%-i, olmayanların isə 30%-i seçib. ($X^2(3)=25.070$, $p<0.01$).

*“Müharibənin yaxın tarixdə başlayacağına nə dərəcədə inanırsınız?”* sualına cavablar cəbhə və qeyri-cəbhə bölgələri üzrə ciddi dərəcədə fərqlənmir - 60,7% və 52,8% və s.

### 1.2. Dövlətin və xalqın müharibəyə hazırlığı

Bu sorğuda 94,4% respondent Azərbaycan dövlətinin, 94,8% respondent isə Azərbaycan xalqının müharibəyə tam hazır olduğunu bildirib. Cəmi 67 (2,9%) nəfər Azərbaycan xalqının müharibəyə hazır olmadığını bildirib.

Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğunu deyənlərin gender bölgüsü üzrə demək olar ki, oxşar göstəricilər əldə edilib (kişilər 95,3% və qadınlar 93,5%). Demək olar ki, eyni göstərici *“Azərbaycan xalqı müharibəyə nə dərəcədə hazırdır?”* sualı üzrə də müşahidə edilib.

Bütün məşğuliyyət qrupları üzrə Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğuna inananların göstəriciləri demək olar ki eynidir. Bu qruplar arasında Azərbaycan xalqının müharibəyə tam hazır olduğuna inananların göstəriciləri bir-birinə yaxındır. Həm Azərbaycan dövlətinin, həm də Azərbaycan xalqının müharibəyə tam hazırlığına dair iqtisadi rayonlar üzrə göstəricilər arasında ciddi fərq müşahidə edilməyib.

Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğuna inam “yuxarı” sosial təbəqə arasında 84,8%, “aşağı” sosial təbəqə üçün isə 69,2% təşkil edib.

I Qarabağ müharibəsində ön cəbhədə və arxa cəbhədə xidmət etmiş, eləcə də yaşadığı yerdən (cəbhə və ya qeyri-cəbhə bölgəsi) asılı olmayaraq, respondentlər demək olar ki, eyni dərəcədə həm xalqın, həm də dövlətin müharibəyə tam hazır olduğunu bildirib.

Maraqlıdır ki, I Qarabağ müharibəsində iştirakından asılı olmayaraq, Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğuna dair qrupların inam göstəriciləri demək olar ki eynidir - 94,2% və 94,4%.

Azərbaycan dövlətinin və xalqının müharibəyə tam hazır olduğuna dair rəylər qaçqın statusunun olub-olmamasından asılı olmayaraq hər iki qrup üzrə demək olar ki üst-üstə düşür -

**Sizcə, Azərbaycan dövləti müharibəyə nə dərəcədə hazırdır?**




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

**Sizcə, Azərbaycan xalqı müharibəyə nə dərəcədə hazırdır?**




hər iki halda da tam hazır olduğunu deyənlərin ümumi göstəricisi 90%-dən yüksəkdir.

Ailə üzvlərindən hazırda hərbi xidmətdə kiminsə olub-olmamasından asılı olmayaraq hər iki qrup Azərbaycan dövlətinin müharibəyə eyni dərəcədə tam hazır olduğunu düşünür (93,8% və 94,5%). Azərbaycan xalqının müharibəyə tam hazır olduğunu ailə üzvlərindən hazırda hərbi xidmətdə olanların 96,8%-i, olmayanların isə 94,5%-i bildirib. Yaşadığı bölgədən (cəbhə və ya qeyri-cəbhə bölgəsi) asılı olmayaraq, respon-

dentlər demək olar ki, oxşar dərəcədə həm xalqın (93,7% və 96,4%), həm də dövlətin (94,9% və 94%) müharibəyə tam hazır olduğunu bildirib.




**1.3. Azərbaycan ordusunun gücünə ictimai münasibət**

Bu sorğuda respondentlərin 98%-i Azərbaycan ordusunun güclü olduğunu düşünür. Qaçqınlarla bağlı keçirilən sorğuda isə 95,9% respondent hesab edir ki, heç bir xarici dövlətin dəstəyi olmadan ordumuz öz ərazi bütövlüyünü bərpa edə bilər.

*“Azərbaycan ordusunun gücünü necə qiymətləndirirsiniz?”* sualı üzrə bütün məşğuliyyət qrupları arasında yüksək nəticələr əldə edilib (90%-dən çox). Bu nəticəni ordunun gücünü bütün iqtisadi rayonlar üzrə qiymətləndirənlərə də şamil etmək olar.

Ümumiyyətlə, ordunun gücünü hər üç yaşayış yeri üzrə mütləq əksəriyyət yüksək qiymətləndirir.

Azərbaycan ordusunun gücünü həmçinin hər üç sosial təbəqə üzrə mütləq əksəriyyət yüksək qiymətləndirir.

Azərbaycan ordusunun gücünü bütün yaş qrupları üzrə mütləq əksəriyyət yüksək qiymətləndirir.

Azərbaycan ordusunun gücünü ailə üzvlərindən hərbi xidmətdə olanlar (98,6%) və olmayanlar (98%) eyni dərəcədə yüksək qiymətləndirir.

Ordumuzun gücünü yüksək qiymətləndirənlər qaçqın statusu olan və olmayanlar üzrə təxminən eynidir - 90%-dən çox.

Əgər Ermənistanla sərhəd və Dağlıq Qarabağla təmas xəttində yaşayanların 98,2%-i Azərbaycan ordusunun gücünü çox yüksək olaraq qiymətləndirirsə, digər bölgələrdə yaşayanlar üçün bu göstərici 97,9% təşkil edir.

**1.4. Dağlıq Qarabağ probleminin hərbi yolla nizamlanmasında siyasi lider faktoru**

93,1% respondent yalnız hazırkı ölkə rəhbərliyinin Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inanır ki, bu fakt da bu gün Azərbaycan torpaqlarının məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi, rasional və uzaqgörən siyasəti nəticəsində işğaldan azad olunması ilə birbaşa öz əyani təsdiqini tapır.

Yalnız Ali Baş Komandanın Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inamın səbəbləri sırasında ilk yerdə hakimiyyətin güclü ordu quruculuğu siyasəti (57,6%) dayanırsa, ölkə rəhbərinin geosiyasi mühiti düzgün dəyərləndirməsi (48,2%), düşmən üzərində son dövrlərdə qələbələrin əldə edilməsi (39,9%) və bir sıra ölkələrlə uğurlu hərbi əməkdaşlıq (34,2%) Dağlıq Qarabağ probleminin yalnız indiki hakimiyyətin rəhbərliyi altında hərbi yolla həllini mümkün edir.

Dağlıq Şirvanda yalnız Ali Baş Komandanın Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inananlar daha çoxdur - 93,8%. Yuxarı Qarabağ üçün isə bu göstərici 88,3% təşkil edir. Nisbətən az inam isə Şəki-Zaqatala (65,3%) və Abşeron (68,5%) üzrə müşahidə edilib.

*“Yalnız Ali Baş Komandanın rəhbərliyi altında Dağlıq Qarabağ məsələsinin hərbi yolla həll ediləcəyinə inanırsınızmı?”* sualına I Qarabağ müharibəsində iştirakından asılı olmayaraq hər iki əhali qrupu üzrə eyni göstəricilər müşahidə edilib (83% və 83,2%). Hakimiyyətin güclü ordu quruculuğu siyasəti yüksək inamın əsas səbəbi kimi I Qarabağ müharibəsində iştirakından asılı olmayaraq hər iki əhali qrupu tərəfindən irəli sü-




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

rülüb - 58% və 57,6%.

*"Yalnız hazırkı ölkə rəhbərliyinin Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inanırsınızmı?"* sualına I Qarabağ müharibəsində ön cəbhədə xidmət etmiş şəxslərin 83%-i, digər kateqoriyadakı respondentlərin isə 82,9%-i "bəli" cavabını verib. Hər iki qrup üçün də "xeyr" cavabını seçənlərin göstəricisi 14,7% (ön cəbhə) və 13% (arxa cəbhə) təşkil edib. Başqa sözlə, I Qarabağ müharibəsində ön cəbhədə xidmət edənlər arasında cəmi 44 nəfər, müharibədə arxa cəbhədə xidmət edənlər arasında isə cəmi 12 nəfər bu suala "xeyr" cavabını verib.

İnamın arxasındakı səbəblərə gəlincə isə "yuxarı" sosial təbəqənin 32,8%-i indiki ölkə rəhbərliyinin geosiyasi mühiti düzgün qiymətləndirdiyini göstərsə də, "aşağı" sosial təbəqənin yalnız 19,2%-i bu variantı seçib. Hakimiyyətin güclü ordu quruculuğu siyasətini inamının səbəbi kimi göstərənlər digər sosial təbəqələrə nisbətdə "yuxarı" sosial təbəqədə (62,7%) daha geniş yayılıb.

İnamın səbəblərindən yalnız biri üzrə yaşayış yerləri arasında ciddi fərq müşahidə edilib. "Bir sıra ölkələrlə uğurlu hərbi əməkdaşlıq" variantı şəhər əhalisinin 37,8%-i, qəsəbə əhalisinin isə 29,3%-i tərəfindən göstərilib.

*"Yalnız hazırkı ölkə rəhbərliyinin Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inanırsınızmı?"* sualına "bəli" cavabı verənlər Ermənistanla sərhəd və Dağlıq Qarabağla təmas xəttində yaşayanlar arasında digər bölgələrdə yaşayan sakinlərə nisbətən daha geniş yayılıb (90,5% və 77,9%).

### 1.5. Müharibə tərəflərinə xarici dəstək amili

Mümkün müharibə şəraitində Azərbaycana dəstək verəcək ölkələr kimi ən çox bu dövlətlərin adları çəkilib - Türkiyə (99,8%), Pakistan (99,6%) və Ukrayna (93,2%). Ermənistan üçün isə cavablar belədir - Rusiya (98,2%), Fransa (98,1%), ABŞ (84,3%) və İran (82,3%).

2125 nəfərin 98,2%-i Rusiyanın müttəfiqi Ermənistana dəstək verəcəyini düşünsə də, ATƏT-in Minsk qrupunun əsas həmsədrlərindən olan bu ölkənin müharibənin gedişatına indiyə qədər müdaxilə etməməsini ("Tərəfləri atəşi dayandırmağa və vəziyyəti sabitləşdirmək üçün danışıqlara başlamağa çağırırıq" rəsmi bəyanatlarını çıxmaq şərtilə) dolayısı ilə Azərbaycana öz ərazi bütövlüyünü bərpa etməyə imkan tanıması kimi də dəyərləndirmək olar.

704 nəfərin 98,1%-i Fransadan Ermənistana dəstək gözləntisi içərisində olsa da, Fransa Prezidenti Emmanuel Makronun Minsk qrupu həmsədrlərinin əməliyyatların dayandırılması üçün vahid konsensusa nail olmaq istəyi cəhd olaraq qaldı. Başqa sözlə desək, Fransanın Ermənistana siyasi dəstəyi Bakıya qarşı diplomatik ritorika mahiyyətindən o tərəfə keçmir.

Oxşar vəziyyəti İranla bağlı da müşahidə etmək olar (656 nəfərin 82,3%-i İranın Ermənistana dəstək verəcəyini hesab edirdi).

177 nəfərin 93,2%-i Ukraynadan ölkəmizə dəstək gözləntisi içərisində olduğunu bildirsə də, sözügedən ölkə bu haqlı mübarizəsində Azərbaycana yalnız siyasi dəstəklə kifayətləndi.

Dəstəyin istiqamətləri kimi Azərbaycan üçün ən çox seçilən variant "bütün istiqamətlər" (87,5%), Ermənistan üçün isə "hərbi" istiqamət (82,4%) olub. Azərbaycana bütün istiqamətlərdə dəstək gözləyənlər arasında hər təhsil səviyyəsi üzrə ciddi fərq müşahidə edilməsə də, Ermənistana analoji istiqamətdə dəstək gözləntisi ali təhsillilərdə nisbətən daha yüksəkdir (60,3%).

İsrailin mümkün müharibədə ölkəmizə dəstək verəcəyini düşünənlər əksər yaş qrupları üzrə oxşar olsa da (80%-dən çox), 18-25 yaş qrupu üzrə bu rəqəm 93,3%, 36-45 yaş qrupu üzrə 90,9% təşkil edir.

Gürcüstanın müharibədə ölkəmizi dəstəkləyəcəyi qənaətini 46-55 yaş qrupu üzrə olan respondentlər daha çox bölüşür.

46-55 yaş qrupundan olan respondentlər İranın mümkün müharibədə Ermənistana dəstək verəcəyini digər yaş qruplarına nisbətən daha çox düşünür - 88,7%.

Digər məşğuliyyət qruplarına nisbətdə özəl sektorda çalışanların 92,2%-i hesab edir ki, İran mümkün müharibədə Ermənistanı dəstəkləyəcək. Dövlət sektorunda çalışanlar, işsizlər və evdar qadınlar üçün bu rəqəm müvafiq olaraq 89,5%, 79,2% və 68,5% təşkil edir.

Tələbələr ölkəmizə iqtisadi dəstək veriləcəyini ən çox qeyd edən qrupdur - 85,8%. Fərdi

**Ayrı-ayrı ölkələrinin müharibə şəraitində tərəflərə bu və ya digər şəkildə dəstək ifadəsi**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 99.8% | 93.2% | 99.6% | 87.2% | 71.0% | 70.4% | 17.7% | 15.7% | 1.8% | 1.9% |
| | 0.2% | 6.8% | 0.4% | 12.8% | 29.0% | 29.6% | 82.3% | 84.3% | 98.2% | 98.1% |

**Əsas dəstək istiqamətləri**

| | Siyasi | Hərbi | İqtisadi | Humanitar | İnformasiya | Bütün istiqamətlər |
|---|---|---|---|---|---|---|
| | 74.7% | 69.2% | 71.7% | 74.5% | 74.0% | 87.5% |
| | 67.3% | 82.4% | 67.7% | 63.2% | 70.0% | 54.4% |

***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

əmək müqaviləsi ilə işləyənlər, işsizlər və dövlət sektorunda çalışanların 70%-dən çoxu ölkəmizə iqtisadi dəstək veriləcəyini qeyd edir. Özəl sektor işçilərinin isə 59,4%-i bu fikrə hakimdir.

I Qarabağ müharibəsində ön və arxa cəbhədə xidmət edənlərin mümkün müharibədə Azərbaycana dəstək istiqamətləri üzrə rəyləri yaxın olsa da, bir neçə istiqamət üzrə fərq müşahidə edilib. Belə ki, ölkəmizə iqtisadi istiqamətdə dəstəyi sözügedən müharibədə ön cəbhədə xidmət edənlər (78,9%) arxa cəbhədə xidmət edənlərə nisbətdə (61,2%) daha çox gözləyir.

Maraqlıdır, İsraildən ölkəmizə dəstək gözləntisi cəbhəyanı ərazidə yaşayanlar arasında qeyri-cəbhə bölgəsinin sakinlərinə nisbətən daha çoxdur - 94,4% və 84,3%. Gürcüstandan ölkəmizə dəstəyi isə cəbhəyanı bölgə sakinlərinə (66,1%) nisbətən qeyri-cəbhə bölgəsində yaşayanlar daha çox gözləyir - 74,5%.

Cəbhə bölgəsində yaşayanların 77,5%-i, qeyri-cəbhə bölgəsinin sakinlərinin isə 67,8%-i ölkəmizə iqtisadi dəstək gözləyir. Cəbhə bölgəsində yaşayanların 81,1%-i, digər qrup üzrə isə 70% Azərbaycana daha çox humanitar dəstək olacağını bildirib. Maraqlıdır, müharibə bölgəsinin sakinlərinin 82,2%-i ölkəmizə daha çox informasiya dəstəyi gözləsə də, qeyri-cəbhə bölgəsinin sakinləri üçün bu rəqəm 68,5% təşkil edir.

### 1.6. Dağlıq Qarabağ probleminin həllinin gecikməsini şərtləndirən amillər

Respondentlərin 53,8%-i Dağlıq Qarabağ probleminin həllinin gecikməsini daha çox Rusiyanın müharibənin başlamasına əngəl olması




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

ilə əlaqləndirib. İkinci amil kimi 48,1% respondent tərəfindən böyük dövlətlərin (ABŞ, Rusiya, Fransa) problemin həll edilməməsində maraqlı olduğu göstərilib. 42,8% respondent isə hesab edir ki, BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrini yerinə yetirməməsi problemin həllinin gecikməsini şərtləndirir.

Münaqişənin həllinin gecikməsini şərtləndirən amillərə iqtisadi rayonlar üzrə respondent rəyləri fərqlənir. Belə ki, Yuxarı Qarabağda "BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrini yerinə yetirməməsi"nin problemin həllini gecikdirdiyini düşünənlər daha çoxdur - 47%. Bakıda yaşayanlar üçün bu rəqəm 35%-ə, Şəki-Zaqatala əhalisi üçün isə 22,3%-ə bərabədir.

Problemin həllinin gecikməsində "Rusiyanın müharibənin başlanmasına əngəl olması" variantı digər rayonlara nisbətən daha çox Quba-Xaçmaz (61,2%), ən az isə Gəncə-Qazax (47,7%) əhalisi tərəfindən seçilib. Türkiyənin siyasi və hərbi dəstəyinə mane olan digər ölkələr faktorunun problemin həllini yubatmasına dair iqtisadi rayonlar üzrə göstəricilər Quba-Xaçmaz əhalisi arasında nisbətən yüksəkdir - 22,3%. Dağlıq Şirvanda yaşayanlar arasında heç kim bu variantı seçməyib.

Özəl sektor işçiləri arasında 33,9%, evdar qadınlar arasında isə 19,3% respondentin fikrincə, münaqişənin həllinin gecikməsini Erməni diasporunun xaricdə güclü fəaliyyəti şərtləndirir.

Dağlıq Qarabağ probleminin həllinin gecikməsini şərtləndirən xarici amillərə dair rəylər yaşayış yerləri üzrə fərqlənmir.

Rusiyanın müharibənin başlanmasına əngəl olması variantının göstəriciləri hər üç sosial təbəqə üzrə demək olar ki, eynidir.

Diqqətə çatdıraq ki, 53,8% respondent Rusiyanın müharibənin həllinə əngəl olmasının, eləcə də 27,1% respondent erməni diasporunun xaricdə güclü fəaliyyətinin Dağlıq Qarabağ probleminin həllinin gecikməsini şərtləndirdiyini düşünsə də, reallıqda nə Rusiya amili, nə də erməni diasporunın xaricdə güclü fəaliyyəti proseslərin önünə keçə bildi.

Dağlıq Qarabağ probleminin həllini gecikdirən amillər üzrə rəylər I Qarabağ müharibəsində ön və ya arxa cəbhədə xidmət etməsindən asılı olmayaraq hər iki qrup üzrə demək olar ki, üst-üstə düşür.

Dağlıq Qarabağ probleminin həllinin gecikməsini şərtləndirən amillərə dair rəylər cəbhə və qeyri-cəbhə bölgələri üzrə ciddi dərəcədə fərqlənmir.

### 1.7. İkinci Qarabağ müharibəsindən gözləntilər

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında mövcud dinamik tendensiya fonunda yaranmış hərbi-siyasi şərait özlüyündə məsələnin hərbi-siyasi perspektivlərinin proaktiv dəyərləndirilməsini tələb edir.

Belə ki, respondentlərin 89,6%-i İkinci Qarabağ müharibəsinin başlanması ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyini bildirib.

30,5% respondent bu savaşla "məğlub xalq" sindromunun aradan qalxacağı ehtimalını bölüşür ki, hazırda Azərbaycanın qalib obrazı istər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda yaşayan hər bir vətəndaşımızın qürur mənbəyinə çevrilib.

Məşğuliyyət qrupları arasında İkinci Qarabağ savaşının başlanması ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyi fikri ev təsərrüfatı ilə məşğul əhali qrupu (71,6%) arasında daha geniş yayılıb. Digər qruplar üzrə bu fikrə hakim olanların göstəriciləri bir-birinə yaxındır.

İkinci Qarabağ müharibəsinin başlanması ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyi variantı "yuxarı" (70,4%) , "məğlub xalq" sindromunun aradan qalxacağı variantı "aşağı" sosial təbəqə (32%) arasında daha geniş yayılıb.

Sosial təbəqələr arasında münaqişənin həlli baxımından digər vacib məqamlar üzrə respondent rəyləri fərqlənmir.

*"İkinci Qarabağ müharibəsinin başlanması sizin üçün hansı mənanı ifadə edəcək?"* sualına bütün yaş qrupları üzrə respondentlərin cavabları arasında ciddi fərq müşahidə edilməsə də, 18-25 yaş qrupu tərəfindən Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyi variantı digər yaş qruplarına nisbətən daha çox seçilib - 72,1%. Bu yaş qrupundan olanlar (35,6%) digər qruplara nisbətən "məğlub xalq" sindromunun aradan qalxacağını daha çox qeyd edib.

Yuxarı Qarabağ və Lənkəranda əhalinin 70%-dən çoxu hesab edir ki, İkinci Qarabağ müharibəsi başlayarsa, Dağlıq Qarabağ və ətraf 7 rayon azad ediləcək. Bakı əhalisi üçün bu rəqəm 59,6% təşkil edir.

*"İkinci Qarabağ müharibəsinin başlanması sizin üçün hansı mənanı ifadə edəcək?"* sualına ailə üzvlərindən hərbi xidmətdə olanların və olmayanların rəyləri yaxın olsa da, ailə üzvlərindən hərbi xidmətdə olanlar İkinci Qarabağ müharibəsinin başlanması ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyini daha çox bildirib - 71%.




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

Nəzərə çatdıraq ki, məcburi köçkünlərlə aparılan sorğunun nəticələrinə əsasən, 93,8% respondent yaxın gələcəkdə bütün ərazilərin azad işğaldan olunacağına inanır.

*"İkinci Qarabağ müharibəsinin başlanması sizin üçün hansı mənanı ifadə edəcək?"* sualına respondent rəyləri yaşayış yerləri üzrə fərqlənmir.

Cəbhə bölgəsindən olan respondentlərin 73,2%-i, qeyri-cəbhə bölgəsindən olanların 62%-i İkinci Qarabağ müharibəsinin başlanması ilə Dağlıq Qarabağın və ətraf 7 rayonun azad ediləcəyini düşünür. Cəbhəyanı bölgə sakinləri müharibə nəticəsində həm də "məğlub xalq" sindromunun aradan qalxacağını daha çox qeyd edib - 32,3%.

I Qarabağ müharibəsində ön cəbhədə xidmət edənlər arasında İkinci Qarabağ müharibəsinin başlanması ilə "məğlub xalq" sindromunun aradan qalxacağını düşünənlər arxa cəbhədə xidmət edənlərə nisbətdə daha çoxdur - müvafiq olaraq 33,4% və 17,3%.

### 1.8. Münaqişənin həlli baxımından vacib amillər

Respondentlərin təxminən yarıya yaxını (44,5%) münaqişənin həlli baxımından Azərbaycan dövlətinin hərbi cəhətdən daha da güclənməsini vacib hesab edir. Münaqişənin həlli baxımından Azərbaycanın birbaşa Rusiya ilə danışıqlara başlamasını 42,9%, xarici tərəfdaşlarının sayını daha da artırmalı olduğunu isə 37,4% respondent irəli sürüb.

Münaqişənin həlli baxımından diplomatiyanın, iqtisadiyyatın, sosial vəziyyətin və səhiyyənin durumunun orduya adekvat olmalı olduğunu düşünənlər ali təhsillilər arasında 28%, tam orta təhsillilər arasında 16,2% təşkil edib.

Maraqlıdır, Azərbaycanın Qərblə danışıqlara başlamasını sözügedən aspektdən özəl sektor-

da işləyənlər daha vacib hesab edir (19,6%).

Ermənistanın hərbi və siyasi cəhətdən daha da zəifləməsinin münaqişənin həlli baxımından vacibliyini evdar qadınların 28%-i bölüşür. Məşğuliyyət qrupları arasında ən aşağı göstərici ilə özəl sektor işçiləri (9,8%) təmsil olunur.

Tələbələr (59%) münaqişənin həlli üçün Azərbaycanın xarici tərəfdaşlarının sayını daha da artırmalı olduğunu digər qruplara nisbətdə daha çox qeyd edib. Bu fikri ev təsərrüfatı ilə məşğul olanların və fərdi əmək müqaviləsi ilə işləyənlərin müvafiq olaraq 41,3%-i və 27,6%-i qeyd edib.

Məşğuliyyət qrupları arasında Dağlıq Qarabağ probleminin həlli üçün əlverişli geosiyasi vəziyyətin mütləq yetişməli olduğunu düşünənlərin göstəriciləri bir-birindən çox fərqlənməsə də, fərdi əmək müqaviləsi ilə işləyənlərin 18%-i bu variantı seçdiyi halda, təqaüdçülər arasında cəmi 8,9% respondent bu fikirlə həmrəydir.

“Vahid iqtidar-müxalifət platforması formalaşmalıdır” və “Hökumət qurumları arasında keyfiyyətli fəaliyyət koordinasiyası təmin olunmalıdır” variantlarını seçən respondentlərin göstəriciləri arasında iqtisadi rayonlar üzrə ciddi fərq müşahidə edilməyib.

Burada bir məqamı xüsusilə diqqətə çatdıraq ki, münaqişənin həlli baxımından vahid iqtidar-müxalifət platformasının formalaşması qənaətinə Vətən müharibəsindən öncə ümumilikdə 20,2% respondent hakim idisə, müharibənin uğurlu gedişatı mövcud mənzərəni tamamilə dəyişdi. Belə ki, müharibənin özü reallıqda bu iki əks düşərgənin vahid platformasına çevrildi.

**Münaqişənin həlli baxımından aşağıdakılardan hansıları vacib hesab edirsiniz?**

1. Azərbaycan dövləti hərbi cəhətdən daha da güclənməlidir
2. Azərbaycan birbaşa Rusiya ilə danışıqlara başlamalıdır
3. Azərbaycan xarici tərəfdaşlarının sayını daha da artırmalıdır
4. Diplomatiya, iqtisadiyyat, sosial vəziyyət, səhiyyənin durumu orduya adekvat olmalıdır
5. Ermənistan hərbi və siyasi baxımdan daha da zəifləməlidir
6. Vahid iqtidar-müxalifət platforması formalaşmalıdır
7. Azərbaycan Qərblə danışıqlara başlamalıdır
8. Əlverişli geosiyasi vəziyyət mütləq yetişməlidir
9. Hökumət qurumları arasında keyfiyyətli fəaliyyət koordinasiyası təmin olunmalıdır
10. ÇÇ




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

Ümumilikdə, Vətən müharibəsindən öncə keçirilən bu sorğuda əhalinin 44,5%-i münaqişənin həlli baxımından Azərbaycan dövlətinin hərbi cəhətdən daha da güclənməsini vacib saysa da, əks-hücum əməliyyatlarının miqyası və intensivliyi ordunun gücü və peşəkarlığı ilə bağlı bütün əks stereotipləri birmənalı şəkildə alt-üst etdi.

Münaqişənin həllinin vacibliyini özündə əks etdirən məqamlara nəzər yetirsək, yalnız bir variant üzrə fərqi qeyd edə bilərik ki, o da əlverişli geosiyasi vəziyyətin mütləq yetişməli olduğu qənaətinin qeyri-qaçqınlara nisbətdə qaçqın əhali tərəfindən iki dəfə çox seçilməsidir - 26,7% və 12%.

Münaqişənin həlli baxımından vacib amillərə dair sosial təbəqələrin, eləcə də I Qarabağ müharibəsində ön və arxa cəbhədə xidmət edənlərin rəyləri ciddi surətdə fərqlənmir.

# HƏRBİ-SİYASİ BLOK

## BLOK 2. AZƏRBAYCAN ORDUSUNUN ERMƏNİLƏRİN TOVUZ TƏXRİBATINA CAVAB ZƏRBƏSİNƏ İCTİMAİ MÜNASİBƏT

Erməni silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhəd zonasında, Qazax-Tovuz və Naxçıvan istiqamətində təxribatlarının adi hala çevrilməsi faktiki olaraq Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllini yaxın perspektivin prioritetinə çevirdi. Xüsusilə də hadisələrin sözügedən ssenari üzrə inkişafı onun hərbi xarakterik xüsusiyyətlərinə görə 12 iyul Tovuz döyüşlərini izləməsi Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin ümummilli xarakter çəkisini daha da artırdı. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 12 iyul hadisələrindən öncə ölkəmizə qarşı birmənalı hərbi təxribatlara qlobal susqunluq şəraitində Ermənistanın danışıqları imitasiya etməsinin qəbuledilməzliyinin açıq şəkildə bəyan edilməsi özündə hərtərəfli hazırlığı ehtiva edən xarici siyasət strategiyasının uzaqgörən və rasional təzahürü olmaqla bərabər, münaqişənin hərbi yolla həllinin tezislərini özündə ehtiva edirdi.

### 2.1. Ordumuzun ermənilərin Tovuz təxribatına cavab zərbəsinə ictimai münasibət

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsi ilə Ermənistan ordusundan güclü olduğunu sübut etdiyini düşünən respondentlərin göstəricisi 69,8% təşkil edir. Ordumuzun düşmən təxribatının qarşısını vaxtında ala bildiyini 61,8%, müharibədə düşməni təkbaşına məğlub etməyə qadir olduğunu 59,6% respondent qeyd edib. Hər üç fakt bu gün Azərbaycan ordusunun ərazi bütövlüyü uğrunda apardığı intensiv hərbi əməliyyatların mühüm nəticəsi kimi də dəyərləndirilə bilər.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə respondent rəylərinin təhlili bir çox variantlar üzrə ciddi fərq olmadığını göstərsə də, bir neçə maraqlı nəticə üzə çıxarıb. Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsi ilə Ermənistan ordusundan güclü olduğunu sübut etdiyini düşünənlər arasında natamam ali təhsillilər 81,4%, tam orta təhsillilər 70,8%, ali təhsillilər 65,5% göstərici ilə təmsil olunurlar.

**Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsini necə dəyərləndirirsiniz?**

1. Ordumuz Ermənistan ordusundan güclü olduğunu sübut etdi
2. Ordumuz düşmən təxribatının qarşısını vaxtında ala bildi
3. Ordumuz müharibədə düşməni təkbaşına məğlub etməyə qadir olduğunu göstərdi
4. Ordumuz növbəti dəfə düşməni psixoloji məğlubiyyətə uğratdı
5. Orduda hərbçilərin peşəkarlığının artırılmasına ehtiyac var
6. Ordunun daha da gücləndirilməsinə ehtiyacın olduğu üzə çıxdı
7. Digər
8. ÇÇ




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

"Ordunun daha da gücləndirilməsinə ehtiyacın olduğu üzə çıxdı" və "Orduda hərbçilərin peşəkarlığının artırılmasına ehtiyac var" variantları digər bəndlər ilə müqayisədə bütün qruplar üzrə aşağı nəticələr göstərməsi ilə fərqlənir. Bu onu göstərir ki, rəyi öyrənilən vətəndaşlar Azərbaycan ordusunun gücünü və hərbçilərin peşəkarlığını yüksək qiymətləndirir.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə rəylər üzrə yaş qrupları arasında kəskin fərq müşahidə edilməyib.

"Ordumuz müharibədə düşməni təkbaşına məğlub etməyə qadirdir" istiqaməti üzrə nəticələrin regional təhlili göstərir ki, Quba-Xaçmaz əhalisinin 76,4%-i, Yuxarı Qarabağ əhalisinin isə 55,4%-i sözügedən qənaəti bölüşür. Digər iqtisadi rayonlar orta mövqedə qərarlaşıb.

Respondentlərin 29,6%-i ordumuzun növbəti dəfə düşməni psixoloji məğlubiyyətə uğratdığını qeyd edib. Regional vəziyyətə gəldikdə, Yuxarı Qarabağa aid respondentlərin 43,4%-i bu qənaəti bölüşüb.

Dağlıq Şirvandan olan respondentlərin 85,5%-i, Gəncə-Qazaxdan olanların isə 65,8%-i ordumuzun düşmən təxribatının qarşısını vaxtında aldığını qeyd etdiyi halda, Abşeron əhalisi üçün bu rəqəm 43,9% təşkil edib.

"Ordumuz Ermənistan ordusundan güclü

olduğunu sübut etdi" variantını seçənlər Lənkəran əhalisi arasında 84%-dirsə, Abşeron əhalisi üçün bu rəqəm 50,7%, Yuxarı Qarabağ əhalisi üçün isə 66,5%-dir.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə gəlincə, rəyi soruşulanların münasibəti hər üç yaşayış yeri üzrə fərqlənmir.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə respondentlərin rəyləri sosial təbəqələr üzrə fərqlənməsə də, "orta" təbəqədən olan respondentlər (63,5%) ordumuzun düşmən təxribatının qarşısını vaxtında ala bildiyini nisbətən daha çox qeyd edib. "Aşağı" təbəqədən olanlar arasında cəmi 89 nəfər və ya 26,9% orduda hərbçilərin peşəkarlığının artırılmasına ehtiyacın olduğunu bildirib.

*"Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsini necə dəyərləndirirsiniz?"* sualı ilə bağlı I Qarabağ müharibəsində iştirak edib-etməməsindən asılı olmayaraq hər iki qrup tərəfindən qeyd edilən cavab variantları demək olar ki eynidir.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə dair rəylər qaçqın və qaçqın olmayan əhali arasında elə də fərqlənmir. "Ordumuz növbəti dəfə düşməni psixoloji məğlubiyyətə uğratdı" variantını qaçqın statusu olanların 41,6%-i, qeyri-qaçqınların isə 27,8%-i seçib.

Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə gəlincə, I Qarabağ müharibəsində arxa cəbhədə xidmət edənlər arasında ordumuzun Ermənistan ordusundan güclü olduğunu sübut etdiyini düşünənlər 78,5%, ön cəbhədə xidmət edənlər arasında bu göstərici 68,7% təşkil edir.

Azərbaycan Ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsinə dair rəylərə nəzər salsaq, münaqişə bölgəsində yaşayanlar ordumuzun düşmən təxribatının qarşısını vaxtında ala bildiyini (64,5% və 59,9%), Ermənistan ordusundan güclü olduğunu (70,3% və 69,4%), eləcə də müharibədə düşməni təkbaşına məğlub etməyə qadir olduğunu göstərdiyini ( 60,7% və 58,9%) qeyri-cəbhə bölgəsinin sakinlərinə nisbətən daha çox bildirib.

## 2.2. Ermənistanın Azərbaycanla sərhəddə hücuma keçməsinin səbəbləri

Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə hücuma keçməsini 56,8% respondent düşmənin həmin regiondakı beynəlxalq layihələrə (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars) zərbə vurmaq istəyi ilə əlaqələndirsə də, 46,2% respondentə görə, Ermənistan qəsdən Azərbaycanı təxribata çəkir. Respondentlər Ermənistanın aprel məğlubiyyətinin əvəzini çıxmaq istəyini də (29,9%) Tovuz təxribatının səbəblərindən biri olaraq görürlər.

Düşmənin Tovuz rayonu istiqamətində hücuma keçməsini Ermənistanın münaqişəyə üçüncü bir tərəfi cəlb etmək istəyi ilə əlaqələndirən tələbələrin göstəricisi 37,6% təşkil etdiyi halda, dövlət işçilərinin faiz göstəricisi 20,2%-dir.

"Həmin regiondakı beynəlxalq layihələrə (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars) zərbə vurmaq istəyir" variantını seçənlərin göstəricisi Gəncə-Qazax əhalisi üzrə 67,6% təşkil etdiyi halda, maraqlıdır, Bakı əhalisi arasında bu rəqəm 46%, Dağlıq Şirvanda isə 20,9% olub.

Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə hücuma keçməsinin əsas səbəblərinə gəlincə, bu istiqamətdə respondent rəyləri sosial təbəqə, I Qarabağ müharibəsində iştirak edib-etməməsindən və qaçqın statusunun olub-olmamasından asılı olmayaraq fərqlənmir.

Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə hücuma keçməsininin səbəblərinə dair yaş qrupları arasında rəylər üzrə iki fərq müşahidə edilib. Belə ki, Ermənis-

**Sizcə, Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə hücuma keçməsinin əsas səbəbi nədən irəli gəlir?**

1. Həmin regiondakı beynəlxalq layihələrə (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars) zərbə vurmaq istəyir
2. Ermənistan qəsdən Azərbaycanı sərhəddə təxribata çəkir
3. Aprel məğlubiyyətinin əvəzini çıxmaq istəyir
4. Ermənistan yeni gərginlik ocağı yaratmaqla münaqişənin həllini yubatmaq istəyir
5. Paşinyan bu yolla diqqəti ölkə daxilindəki gərgin vəziyyətdən yayındırır
6. Ermənistan münaqişəyə üçüncü bir tərəfi cəlb etmək istəyir
7. Paşinyan erməni ordusu üzərində nüfuz qazanmaq və bütün hakimiyyət qollarına nəzarətə nail olmaq istəyir
8. Bu təxribatla Ermənistan KTMT-dən çıxmağa bəhanə axtarır
9. Ermənistan qərb yönümlü siyasətini bununla açıq müstəviyə daşıyır
10. Digər
11. ÇÇ




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

tan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə hücuma keçməsini Aprel məğlubiyyətinin əvəzini çıxmaq istəyi ilə əlaqləndirənlər 18-25 və 26-35 yaş qrupları üzrə 35%-dən çoxdur. Ermənistanın Tovuz təxribatı ilə həmin regiondakı beynəlxalq layihələrə zərbə vurmaq istədiyini 56-65 yaş (62,3%) və 65 yaşdan yuxarı olanlar (60,8%) nisbətən daha çox vurğulayıb.

Yalnız Ermənistanın Tovuz rayonu istiqamətində hücuma keçməklə Aprel məğlubiyyətinin əvəzini çıxmaq istədiyini düşünənlər I Qarabağ müharibəsində iştirak edənlərə nisbətən (20,9%) müharibədə iştirak etməyənlər (31,8%) arasında daha geniş yayılıb.

### 2.3. Hazırkı şəraitin problemin həllində yol açacağı dəyişikliklər

Tovuz döyüşlərindən sonra yaranmış şərait fonunda Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin qaçılmaz olacağını respondentlərin təxminən yarıya yaxını (46,5%) qeyd edib. Gözlənilən dəyişikliklərdən biri də onunla bağlıdır ki, geosiyasi təcrid Ermənistanda siyasi böhrana yol açacaq və bu da onların hərbi uğursuzluğuna səbəb olacaq (35,5%). Bu istiqamət üzrə sorğu nəticələri hazırkı vəziyyətdə Ermənistanın mövcud durumu ilə üst-üstə düşür.

Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin qaçılmaz olacağı qənaəti hər təhsil səviyyəsi üçün 40%-dən yüksəkdir. Bu fikrə ali təhsillilər arasında 50,2% respondent hakimdir.

12 iyulda Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə hərbi aktından sonra yaranmış şərait fonunda respondentlərin 46,5%-i Dağlıq Qarabağ probleminin hərbi yoll həllinin qaçılmaz olacağını düşünürdü. Hadisələrin sonrakı gedişatı fonunda Ermənistan-Azərbaycan münaqişəsinin müharibə yolu ilə həlli reallığı müharibədən əvvəl aparılan sorğunun nəticələri ilə üst-üstə düşür.

Maraqlıdır, məşğuliyyət qrupları arasında daha çox dövlət sektorunda işləyənlər (40,2%) hesab edir ki, hazırkı şərait, geosiyasi təcrid vəziyyəti, Ermənistanda siyasi böhrana yol açacaq ki, bu da onların hərbi uğursuzluğuna səbəb olacaq.

Ermənistanın zəifləməsi fonunda yeni situasiyanın yaranacağı fikrinə daha çox tələbələr (39,3%) hakimdir. Özəl sektor işçiləri arasında isə 21% respondent bu fikrə sahibdir.

"Yuxarı" təbəqədən olan respondentlər (34%) hazırkı şərait fonunda Rusiyanın Ermənistana siyasi dəstəyinin azalacağını, "aşağı"




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

təbəqədən olan respondentlərə (23,9%) nisbətədə daha çox düşünür. Bu iki təbəqə arasında bənzər fərq (34,8% və 22,4%) "Ermənistanın zəifləməsi fonunda yeni situasiyanın yaranacağı" variantı üzrə də müşahidə edilib.

*"Hazırkı şərait problemin həlli istiqamətində hansı müsbət dəyişikliklərə səbəb ola bilər?"* sualının cavablarının analizi göstərir ki, Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin qaçılmaz olacağı qənaətini daha çox bölüşənlər Gəncə-Qazax (51,8%) və Yuxarı Qarabağdan (50,8%) olan respondentlərdir. Lənkəranda isə bu variant üzrə ən aşağı göstərici qeyd alınıb - 22,7%. Yaxud da bu iqtisadi rayondan olan respondentlər arasında qeyd edilən qənaəti cəmi 27 nəfər bölüşməyib.

I Qarabağ müharibəsində ön və arxa cəbhədə xidmət edənlərin, hərbi xidmətdə olanlar və olmayanların, cəbhə və qeyri-cəbhə bölgəsində yaşayanların, qaçqın və qeyri-qaçqın olanların, eləcə də bütün yaş qrupları üzrə əhalinin *"Hazırkı şərait problemin həlli istiqamətində hansı müsbət dəyişikliklərə səbəb ola bilər?"* sualı ilə bağlı qeyd etdiyi cavab variantları ciddi dərəcədə fərqlənmir.

### 2.4. Hazırkı vəziyyətin problemin həllində tarixi fürsət olması

Respondentlərin 72%-i (52,3% "tamamilə razıyam", 19,7% "əsasən razıyam") hazırkı vəziyyəti bu və ya digər dərəcədə problemin həllində tarixi fürsət olaraq dəyərləndirir.

Hazırkı vəziyyətin problemin həllində tarixi fürsət olması ilə bu və ya digər dərəcədə razılaşanların ümumi göstəricisi Dağlıq Şirvanda daha çox (91,7%), Abşeron (69,9%) və Lənkəranda (53%) isə əhəmiyyətli dərəcədə azdır. Bu

**Bir çox siyasətçinin nəzərində hazırkı vəziyyət problemin həllində tarixi fürsət kimi dəyərləndirilir. Bu fikirlə nə dərəcədə razısınız?**




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

fikirlə müxtəlif dərəcədə razılaşmayanlar arasında Lənkəran ilk mövqedədir - 32%. Başqa sözlə, bu iqtisadi rayondan olan respondentlər arasında qeyd edilən fikirlə bu və ya digər dərəcədə 38 nəfər razılaşmayıb.

Hazırkı vəziyyəti problemin həllində tarixi fürsət olaraq dəyərləndirənlər arasında yaş qrupları üzrə oxşar nəticələr əldə edilib.

Ailə üzvlərindən hərbi xidmətdə olanlar (58,3% "tamamilə razıyam" və 18,7% "əsasən razıyam") hazırkı vəziyyətin problemin həllində tarixi fürsət olması fikri ilə digər qrupa nisbətdə bu və ya digər dərəcədə daha çox razılaşır. Bu fikirlə müxtəlif dərəcələrdə razılaşmayanlar ailə üzvlərindən hərbi xidmətdə olmayanlar arasında daha çoxdur (18% "heç razı deyiləm", 6,3% "əsasən razı deyiləm").

Qaçqın və qeyri-qaçqın əhali arasında hazırkı vəziyyətin problemin həllində tarixi fürsət olması fikri ilə bu və ya digər dərəcədə razılaşanların göstəriciləri ciddi surətdə fərqlənmir.

### 2.5. Düşmənin Tovuz təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücum mövqeyi

*"Azərbaycan ordusu düşmənin Tovuzdakı təxribatına cavab olaraq, Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməlidirmi?"* sualına 79,4% respondent "bəli" cavabını qeyd edib.

Azərbaycan ordusunun düşmənin Tovuz rayonundakı təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməli olduğunu düşünən kişi və qadınların sayı ciddi surətdə fərqlənməsə də, kişilər (81,8%) qadınlara nisbətən (76,9%) bu fikri daha çox bölüşür.

Azərbaycan ordusunun düşmənin Tovuz təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməli olduğuna dair məşğuliyyət qrupları arasında rəylər çox fərqlənmir.

*"Azərbaycan ordusunun düşmənin Tovuz təxribatına cavab olaraq, Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməlidirmi"* sua-

**Azərbaycan ordusu düşmənin Tovuz rayonundakı təxribatına cavab olaraq, Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməlidirmi?**




lına hər üç sosial təbəqə üzrə əhəmiyyətli hissə ("yuxarı" təbəqə 84,8%, "orta" təbəqə 80%, "aşağı" təbəqə 75,6%) "bəli" cavabını verib.

Yaş qrupları arasında Azərbaycan ordusunun düşmənin Tovuz rayonundakı təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməsinə dair mövqelər oxşarlıq təşkil etsə də (bütün yaş qrupları üzrə 70%-dən çox "bəli" bəndini seçib), 36-45 yaş qrupu nisbətən bu mövqenin daha çox tərəfdarıdır - 83,4%.

Azərbaycan ordusunun düşmənin Tovuz təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməsini I Qarabağ müharibəsində iştirakından, eləcə də ailə üzvlərindən kiminsə hərbi xidmətdə olub-olmamasından asılı olmayaraq hər iki qrup eyni dərəcədə istəyir.

### 2.6. Müharibə zamanı özünüzü nə dərəcədə təhlükədə hiss edərsiniz?

Əhalinin əhəmiyyətli hissəsi (78,1%) müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edəcəyini deyib. Özünü "tam təhlükəsiz" hiss edənlər 49,9%, "qismən təhlükəsiz" hiss edənlər 28,2% təşkil edir. Kişilərin 83,3%-i, qadınların isə 72,8%-i müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edəcəyini deyib. 18-25 (82,4%) və 26-35 yaş qrupundan olanlar (84,7%) digər qruplara nisbətən müharibə zamanı özünü bu və ya digər dərəcədə daha çox təhlükəsiz hiss edəcəklərini bildiriblər. Qaçqın statusu olmayanlar (79,2%) qaçqınlara (71,5%) nisbətən özlərini müharibə zamanı bu və ya digər dərəcədə daha çox təhlükəsiz hiss edəcəklərini bildiriblər. Münaqişə bölgəsindən uzaqda yaşayanlar (79,6%) cəbhə zonasında yaşayanlara (76%) nisbətdə özlərini müharibə zamanı bu və ya digər dərəcədə daha

**Müharibə zamanı özünüzü və ailə üzvlərinizi nə dərəcədə təhlükədə hiss edərsiniz?**



təhlükəsiz hiss edəcəklərini bildiriblər.

Müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edəcəyini deyən “yuxarı” və “orta” təbəqdən olan respondentlərin göstəriciləri eynidir - 79,7%. Maraqlıdır ki, müharibə zamanı “yuxarı” təbəqə (60,2%) “orta” (50,2%) və” aşağı” təbəqə (45%) ilə müqayisədə özünü daha çox tam təhlükəsiz hiss edəcəyini bildirib. Müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edənlərin göstəricilərinin regional aspektdən təhlilinə nəzərə salsaq, Bakı (80,3%) və Abşeron əhalisi (85%) müharibə zamanı özünü bu və ya digər dərəcədə daha çox təhlükəsiz hiss edir. Bunun əksinə olaraq Şəki-Zaqatala və Yuxarı Qarabağda yaşayanlar üçün bu rəqəm müvafiq olaraq 82% və 75,5% təşkil edir. Lənkərandan olan respondentlər (66,4%) müharibə zamanı özlərini digər regionlara nisbətdə daha az təhlükəsiz hiss edirlər.




**2.7. Özünüz/ailə üzvləriniz müharibədə iştirak üçün cəbhəyə gedərmi?**

Respondentlərin 91,2%-i *“Özünüz/ailə üzvləriniz müharibədə iştirak üçün cəbhəyə gedərmi?”* sualına “bəli” cavabını verib. Kişilərlə yanaşı (96,8%) qadınların da əksəriyyəti özlərinin və ailə üzvlərinin (85,5%) müharibədə iştirak üçün cəbhəyə gedəcəyini bildirib. Bütün yaş qrupları üzrə mütləq əksəriyyət (90%-dən çox) müharibədə iştirak üçün cəbhəyə gedəcəyini qeyd edib. Digər yaş qrupları ilə müqayisədə nisbətən aşağı göstərici 65-dən yuxarı yaş qrupu (88,1%) arasında müşahidə edilib ki, əslində bu göstərici sözügedən yaş kateqoriyası üzrə olduqca yüksək nəticə hesab edilə bilər. Nəzərə çatdıraq ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına əsasən Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün könüllü olaraq orduya yazılanların sayı Vətən müharibəsinə qədər 55 mini ötmüşdü.

Bu suala dair təhsil səviyyələri, məşğuliyyət qrupları, eləcə də digər kateqoriyalar üzrə rəylər ciddi dərəcədə fərqlənmir.

**2.8. Azərbaycanın ərazi bütövlüyünün bərpasında siyasi sistemin rolu**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, müxtəlif inkişaf mərhələləri və həlli prosesində onun mürəkkəb və ziddiyyətli xarakteri təkcə statistik rəqəmlərlə müşayiət olunmur. Problemin ziddiyyətli və mürəkkəb xarakteri zaman keçdikcə onun aradan qaldırılmasını müəyyənləşdirən şərtlərin dəyişən mahiyyətini də özündə daşımaqdadır. Bu münaqişənin mahiyyəti torpaqların itirilməsi faktından daha böyük bir anlayışı - əzəli torpaqlarımızın işğalı kimi ağrılı bir məğlubiyyətin acınacaqlı simptomlarını daşıyan Azərbaycan xalqının keçdiyi tarixi sınaqları özündə ehtiva edir. Odur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli bu gün təkcə Azərbaycanda deyil, bütövlükdə regionda yeni ictimai-siyasi mərhələnin başlanğıcını qoyacaq.

Azərbaycanın I Qarabağ müharibəsində itirdiyi torpaqların son döyüşlərlə geri qaytarılmasında 73,1% respondent xalq-prezident birliyi faktorunu, 52,1% respondent isə Azərbaycan dövlətinin güclü ordu quruculuğu və hərb siyasəti amilini əsas tutur.

Azərbaycanın I Qarabağ müharibəsində itirdiyi torpaqların son döyüşlərlə geri qaytarılmasına dair qeyd edilən amillər üzrə respondent rəylərinin gender aspektindən təhlili nəticəsində ciddi fərq müşahidə edilməsə də, Azərbaycanın güclü ordu quruculuğu və hərb siyasəti variantı




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

(55,6% və 49%) kişilərlə müqayisədə qadınlar tərəfindən daha çox seçilib.

Azərbaycanın I Qarabağ müharibəsində itirdiyi torpaqların son döyüşlərlə geri qaytarılmasında rolu olan amillərə dair rəylər demoqrafik göstəricilər baxımından bir neçə variant üzrə fərqlənir. Xalq-prezident birliyi qənaətinə yaşayış yerləri üzrə kənd əhalisi (41,5%) nisbətən daha çox hakimdir. Sözügedən məsələdə Azərbaycan dövlətinin güclü ordu quruculuğu və hərb siyasəti variatının rolunu kənd əhalisi (54,3%) daha çox qeyd edib.

“Yuxarı” təbəqədən olan respondentlərin 40,7%-i Azərbaycan dövlətinin reallaşdırdığı güclü daxili və xarici siyasət nəticəsində I Qarabağ müharibəsində itirilən torpaqların geri qaytarıldığını düşünürsə, “aşağı” təbəqədən olan respondentlər arasında bu fikri bölüşənlərin göstəricisi 84 nəfər və ya 25,4% təşkil edir.

Azərbaycanın I Qarabağ müharibəsində itirdiyi torpaqların son döyüşlərlə geri qaytarılmasını güclü ordu quruculuğu və hərb siyasəti ilə əlaqələndirənlər 18-25 yaş qrupu arasında 60,1% təşkil etdiyi halda, 56-65 yaş qrupu üçün bu rəqəm 44,5%-ə bərabərdir.

### 2.9. Tovuz təxribatı ilə bağlı Rusiyanın sərgilədiyi mövqeyə ictimai münasibət

Ermənilərin Tovuz rayonundakı təxribatı ilə bağlı Rusiyanın sərgilədiyi mövqeyə gəlincə, 86,6% respondentə görə, Rusiyanı daha çox Ermənistandakı hərbi bazası maraqlandırır. Rusiyanın məlum mövqeyini bu münaqişədə Türkiyə ilə üz-üzə gəlmək istməməsi ilə əlaqələndirənlərin göstəricisi 73,3% təşkil edir.

Tovuz təxribatı ilə bağlı Rusiyanın sərgilədiyi mövqeyə gəlincə, Rusiyanın Ermənistandakı anti-Rusiya ab-havasına görə belə davrandığını düşünənlər natamam orta təhsillilər üzrə 70,7%-ə, ali təhsillilər üzrə isə 56,6%-ə bərabərdir. Əks mövqeni bölüşənlər isə ali təhsillilər arasında nisbətən daha çoxdur - 33,9%.

Ermənistanın artıq Rusiya üçün ciddi maraq kəsb etmədiyini qeyd edənlərin göstəricisi hər təhsil səviyyəsi üzrə 40%-dən yüksəkdir. Maraqlıdır, bunun əksini iddia edənlər arasında ali təhsillilər digər qruplara nisbətən daha çoxdur - 54%.

“Rusiya Ermənistandakı anti-Rusiya ab-havasına görə belə davranır” variantına qəsəbə və kənd sakinlərinin 60%-dən çoxu “bəli” cavabını verib. Şəhər əhalisi üçün bu rəqəm 55,5%-ə bərabərdir.

“Rusiya Azərbaycana tərəfdaş kimi güvənmir” variantına şəhər və qəsəbə sakinlərinin 60%-dən çoxu “bəli” cavabını verib. Hər üç sosial təbəqə üzrə əksəriyyət (80%-dən çox) “Rusiyanı daha çox Ermənistandakı hərbi bazası maraqlandırır” variantına “bəli” deyib.

**Tovuz rayonundakı təxribatla bağlı Rusiyanın sərgilədiyi mövqe aşağıdakılardan hansı ilə əlaqəlidir?**



# HÜQUQİ-SİYASİ BLOK

## BLOK 3. MÜNAQİŞƏNİN HƏLLİNDƏ BEYNƏLXALQ FAKTORLAR

Cənubi Qafqazda əbədi sülhün bərqərar olmasına, həmçinin bu regionun inkişafına maneə yaradan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, sülh yolu ilə həllolunma missiyası dünya siyasətinin əsas geostrateji konturlarını müəyyənləşdirən dövlətlərə - ATƏT-in Minsk qrupunun həmsədrlərinə (Rusiya, ABŞ, Fransa) həvalə edilib. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Helsinki Yekun Aktı və Paris Xartiyasının prinsipləri əsasında münaqişənin siyasi həllinin tərəfdarı olan AŞPA-nın "Cənubi Qafqazda münaqişələr haqqında" 1119 və 1416 nömrəli "ATƏT-in Minsk qrupu tərəfindən tənzimlənən Dağlıq Qarabağ münaqişəsi haqqında" qətnamələrinə, ATƏT-in Minsk qrupunun 2007-ci ilin noyabrında münaqişənin sülh yolu ilə həlli prinsiplərini özündə ehtiva edən Madrid sənədinə, eləcə də sonrakı illərdə keçirilmiş bir çox görüş və danışıqlara rəğmən, Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə, habelə mövcud qərarlarına qeyri-konstruktiv mövqe nümayiş etdirərək münaqişənin dinc yolla tənzimlənməsinə daim mane olub və danışıqlar prosesində konstruktiv irəliləyişin əleyhinə mövqe nümayiş etdirib.

### 3.1. ABŞ-da Konqresdə Dağlıq Qarabağla bağlı qanun layihəsinin münaqişənin həllinə təsiri

Respondentlərin 52,6%-i ABŞ tarixində ilk dəfə olaraq Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan ən sərt qanun layihəsinin münaqişənin həllinə müsbət təsir edəcəyini düşünsə də, 32,2% respondent bunun heç bir təsirinin olmayacağı qənaətindədir.

Qadın və kişi respondentlərin 50%-dən çoxu ABŞ tarixində ilk dəfə olaraq Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan ən sərt qanun layihəsinin münaqişənin həllinə müsbət təsir edəcəyini düşünür.

Hər üç sosial təbəqə üzrə Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan qanun layihəsinin münaqişənin həllinə təsirinə dair "müsbət" rəylər "yuxarı" və "orta" təbəqə arasında oxşar olsa da (50%-dən çox), "aşağı" təbəqə üçün bu rəqəm 46,9%-dir. Sözügedən qanun layihəsinin münaqişənin həllinə təsiri ilə bağlı "mənfi" rəylə-

**ABŞ-da Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan qanun layihəsi münaqişənin həllinə necə təsir edəcək?**




rin göstəricisi hər üç sosial təbəqə üzrə olduqca aşağı və oxşardır. Qanun layihəsinin münaqişənin həllinə heç bir təsirinin olmayacağını daha çox "aşağı" təbəqədən olan respondentlər qeyd edib - 37,5%. Halbuki bu rəqəm "yuxarı" təbəqədən olanlar üçün 28,9%-ə bərabərdir. Qaçqın statusu olmayanlar qaçqınlara nisbətdə Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan ən sərt qanun layihəsinin münaqişənin həllinə müsbət təsirini daha çox qeyd edib - müvafiq olaraq 53,6% və 46,5%.

Cəbhə və qeyri-cəbhə bölgəsindən olan respondentlər ABŞ tarixində ilk dəfə olaraq Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan ən sərt qanun layihəsinin münaqişənin həllinə müsbət təsirini eyni dərəcədə qeyd ediblər.

### 3.2. ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətinə ictimai münasibət

ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətini əhalinin 81,8%-i "pis" qiymətləndirib. ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətini pis qiymətləndirənlər təqaüdçülər arasında nisbətən daha geniş yayılıb - 80,3%.

ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətini pis qiymətləndirənlərin göstəricisi şəhər əhalisi üçün 70,8%-ə, kənd əhalisi üçün 66%-ə, qəsəbə əhalisi üçün 63,5%-ə bərabədir.

Yaş səviyyəsi artdıqca ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətinə münasibət mənfiyə doğru dəyişir. Belə ki, 56-65 yaş qrupu üzrə əhalinin 76,5%-i ATƏT-in Minsk qrupunun fəaliyyətini pis qiymətləndirirsə, 65-dən yuxarı yaş qrupu üçün bu rəqəm 83,3%

təşkil edir.

I Qarabağ müharibəsində iştirak etmiş şəxslər müharibədə iştirak etməyənlərə nisbətən ATƏT-in Minsk qrupunun fəaliyyətini pis qiymətləndirir - 83,3% və 63,8%.

I Qarabağ müharibəsində ön cəbhədə xidmət edənlərin 85%-i ATƏT-in Minsk qrupunun münaqişənin həllindəki fəaliyyətini pis qiymətləndirir. I Qarabağ müharibəsində arxa cəbhədə xidmət edən şəxslər üçün bu rəqəm 77,5%-ə bərabədir.




### 3.3. Müharibə başlayacağı təqdirdə türk ordusunun Azərbaycana birbaşa hərbi dəstəyinə inam

Müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə mütləq əksəriyyət inamını ifadə edib. Bu göstərici 94,9% təşkil edir.




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

Respondentlərin böyük hissəsi müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə dost-qardaş ölkə olduğumuza görə inanır (90,8%).

Türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə inanmayanlar bunu Türkiyənin Rusiya ilə üz-üzə gəlmək (63,9%) və əlavə cəbhə açmaq istəməməsi (48,5%) ilə əlaqləndirib.

Bütün sosial təbəqələr müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə eyni səviyyədə inanır - 90%-dən çox. İnamın motivlərinə dair rəylərə gəlincə, sosial təbəqələr üzrə müəyyən edilən əsas fərq “Dövlət başçılarının şəxsi dostluq münasibətlərinə görə” variantı ilə bağlıdır ki, bu fikir “yuxarı” təbəqə arasında (31,4%) nisbətən daha çox yayılıb. Əks mövqeni bölüşənlər arasında “yuxarı” təbəqədən olanlar inamsızlığının səbəbini Türkiyənin əlavə cəbhə açmaq istəməməsi (66,7%), “aşağı” təbəqədən olanlar isə bunu daha çox Türkiyənin Rusiya ilə üz-üzə gəlmək istəməməsi (65,4%) ilə izah edib.

Birinci Qarabağ savaşında iştirak etmiş (92,9%) və iştirak etməmiş insanların (95,4%) mütləq əksəriyyəti müharibə zamanı türk ordusunun Azərbaycana birbaşa hərbi dəstək verəcəyinə inanır.

Cəbhə (96,3%) və qeyri-cəbhə bölgəsində yaşayanların (93,9%) mütləq əksəriyyəti müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstək verəcəyinə inanır.

### 3.4. Hərbi-siyasi şəraitin kadr islahatları ilə dəstəklənməsi

Azərbaycan müstəqil xarici siyasət strategiyasının mühüm istiqamətlərindən birini təşkil edən, eləcə də milli, hərbi, ərazi və geosiyasi təhlükəsizliyinin təmin edilməsini hədəfləyən Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına nail olmaq istiqamətində rasional və praqmatik addımlar atır. Bu baxımdan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həlli üçün bütün resurslarını səfərbər edən Azərbaycan dövlətinin sözügedən dövrdə hərbi-siyasi şəraitə adekvat islahatları özlüyündə münaqişənin hərbi hazırlığını ehtiva edib.

Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını (nazir və nazirliyin

digər əməkdaşları) respondentlərin 87,6%-i bu və ya digər dərəcədə yaxşı qiymətləndirib.

Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə yaxşı qiymətləndirənlərin rəyləri təhsil və gender aspektindən fərqlənmir.

Quba-Xaçmaz əhalisi arasında 93% respondent prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını müxtəlif dərəcələrdə yaxşı qiymətləndirir. Bakı əhalisi üçün bu rəqəm 79% təşkil edir.




Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını “yuxarı” (89%) və “orta” təbəqənin (89,3%) nümayəndələri bu və ya digər formada oxşar dərəcədə yaxşı qiymətləndirsə də, “aşağı” təbəqə üçün bu rəqəm müvafiq olaraq 78,9% təşkil edir.

I Qarabağ müharibəsində iştirak edib-etməməsindən asılı olmayaraq prezidentin Xarici İşlər Nazirliyində həyat keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə yaxşı qiymətləndirən qrupların göstəriciləri oxşardır.

Qaçqın statusu olanların 91,3%-i, olmayanların isə 87,2%-i prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə yaxşı qiymətləndirir.

Ailə üzvlərindən hərbi xidmətdə olanlar və olmayanlar arasında əksəriyyət prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə yaxşı qiymətləndirir. Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını “çox yaxşı” dəyərləndirənlər cəbhə bölgəsində yaşayanlar arasında qeyri-cəbhə bölgəsinin sakinlərinə nisbətən daha geniş yayılıb (68,4% və 60,8%).

### 3.5. XİN-də yeni təyinatların Azərbaycanın xarici siyasətinə təsirləri

Xarici İşlər Nazirliyindəki yeni təyinatların Azərbaycanın xarici siyasətində səbəb olacağı dəyişikliklərə gəlincə, ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcəyini 43,3%, Dağlıq Qarabağ cəbhəsində hərbi-siyasi prosesə müsbət təsir edəcəyini 32,1%, XİN-in fəaliyyətinin daha aktiv, sistemli, çevik və beynəlxalq çağırışlara uyğun olacağını 29,7% qeyd edib.

*“XİN-də yeni təyinat Azərbaycanın xarici siyasətində hansı dəyişikliklərə səbəb olacaq?”* sualı üzrə rəylər təhsil və gender aspektindən fərqlənmir.

XİN-dəki yeni təyinatın Azərbaycanın xarici siyasətində səbəb olacağı dəyişikliklərə dair rəylərə nəzər saldıqda, XİN-in fəaliyyətinin daha aktiv, sistemli, çevik və beynəlxalq çağırışlara uyğun olacağını düşünənlərin göstəriciləri Dağlıq Şirvan və Quba-Xaçmaz əhalisi arasında oxşardır - 48% və 47,3%.

XİN-də yeni təyinatın Dağlıq Qarabağ cəbhəsində hərbi-siyasi prosesə müsbət təsir edəcəyini “orta” təbəqənin 33,8%-i düşünürsə, “yuxarı” təbəqə üçün bu rəqəm 23,8% təşkil edir. “Yuxarı” təbəqədən olanların 52,6%-i, “aşağı” təbəqədən olanların isə 34,8%-i hesab edir ki, XİN-dəki yeni dəyişiklik ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək.

Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə yaxş qiymətləndirənlər arasında bütün yaş qrupları üzrə oxşar nəticələr əldə edilib.




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

# HUMANİTAR BLOK

## BLOK 4. 14 İYUL MİLLİ HƏMRƏYLİK NÜMAYİŞİNƏ İCTİMAİ MÜNASİBƏT

İyulun 14-dən 15-nə keçən gecə Bakıda orduya dəstək yürüşü Azərbaycan xalqının öz ərazi bütövlüyünün bərpası uğrunda gözlənilən müharibəyə hazır olduğunu və bir qarış da olsa torpağını düşmənə verməyəcəyini bir daha nümayiş etdirdi. Dünya təcrübəsi və hərb tarixi də göstərir ki, müharibə şəraitində olan ölkələrin ərazi bütövlüyünün bərpa edilməsi üçün silahlı qüvvələrin gücündə hərbi texniki üstünlüklərlə yanaşı, cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəkliyi də dövlətin mənafeyi baxımından vacib amildir. Azərbaycanın siyasi-mənəvi yüksəlişini tamamlayan 14 iyul milli həmrəylik nümayişi bunun bariz nümunəsi olmaqla bərabər, həm də xalq-dövlət-ordu monolit birliyini xarakterizə edən mühüm hadisədir.

**Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirdiniz?**




Bəli:
1. Sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşdım
2. Sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə etdim
3. Şəhidlərin dəfnində iştirak etdim
4. Hərbi hissələrdə qulluq edən əsgərlərə ərzaq yardımı etdim
5. Könüllü olaraq orduda xidmətə yazıldım
6. Dağlıq Qarabağın lehinə petisiya (müraciət) imzaladım
7. 14 İyul yürüşündə fəal iştirak etdim
8. Beynəlxalq təşkilatlara təxribata etiraz məktubu ünvanladım
9. Digər

Xeyr:
1. Karantin qaydalarına riayət edirdim
2. Mövcud vəziyyətimə (sağlamlıq və s.) görə
3. Buna ehtiyac hiss etmədim
4. İndiki hakimiyyətin mövqeyini dəstəkləmirəm
5. Digər

***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

### 4.1. Tovuz əməliyyatları zamanı Azərbaycan dövlətinə və ordusuna ictimai dəstək

Tovuzda aktiv hərbi əməliyyatlar zamanı əhalinin yarıdan çoxu Azərbaycan dövlətinə (48,4%) və ordusuna (48,6%) dəstək nümayiş etdirib. Dövlətə dəstək nümayiş etdirməyənlər 51,6%, orduya dəstək nümayiş etdirməyənlər 51,4% təşkil edir.

Kişilər qadınlara nisbətdə Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan ordusuna (kişilər 59%, qadınlar 37,8%) və dövlətinə (kişilər 58,6%, qadınlar 37,6%) daha çox dəstək nümayiş etdirib.

Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə (57,3%) və ordusuna (59%) ali təhsilli insanlar digər qruplara nisbətən daha çox dəstək nümayiş etdirib.

Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə və ordusuna məşğuliyyət qrupları arasında ən az dəstəyi təqaüdçülər (dövlətə 38,5% və orduya 38,8%) və evdar qadınlar (dövlətə 33,8% və orduya 31,5%) nümayiş etdirib.

Azərbaycan dövlətinə dəstək nümayiş etdirənlər arasında 18-25 (56,7%) və 26-35 yaş qrupları (57,8%) digər yaş qrupları arasında nisbətən çoxluq təşkil edib.

Şəki Zaqatala və Dağlıq Şirvandan olan respondentlər (70,9%) əməliyyatlar zamanı Azərbaycan dövlətinə daha çox dəstək nümayiş etdirib.

Ailə üzvlərindən hərbi xidmətdə olanlar olmayanlara nisbətdə Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə (53,8%, 47,3%) və ordusuna (56% və 47,2%) daha çox dəstək nümayiş etdirib.

I Qarabağ müharibəsində iştirak etmiş şəxslər Tovuzda aktiv hərbi əməliyyatlar zamanı müharibədə iştirak etməyənlərə nisbətən Azərbaycan dövlətinə (53,2%, 47,5%) və ordusuna (55,8%, 47,3%) nisbətən daha çox dəstək nümayiş etdirib.

I Qarabağ müharibəsində ön cəbhədə xidmət etmiş şəxslər bu mövqeyindən asılı olmayaraq digər qrupa nisbətdə Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə

(55,7% və 45,2%) və ordusuna (59,7% və 43%) daha çox dəstək nümayiş etdirib.

Qeyri-qaçqın əhali qaçqınlara nisbətdə Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə (49,5% və 41%) və ordusuna (48,9% və 47%) daha çox dəstək nümayiş etdirib.

Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə və ordusuna cəbhə və qeyri-cəbhə bölgəsindən dəstək verənlərin göstəriciləri arasında kəskin fərq müşahidə edilməyib.

### 4.2. Tovuzda aktiv hərbi əməliyyatlara dəstəyin formaları

Əhalinin 57,2%-i sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşıb. İkinci sırada 34,8%-lə sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edənlər qərarlaşıb.

Dəstəyin formalarına dair rəylərin gender aspektindən analizi nəticəsində bir neçə cavab variantı üzrə fərq müəyyən edilib. Belə ki, sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşımı kişilərə nisbətən (50%) qadınlar arasında daha çoxdur - (68,8%). Bundan başqa, kişilərin 31,4%-i şəhidlərin dəfnində iştirak etdiyi halda, qadınlar üçün bu rəqəm 18,2%-ə bərabər olub. Dövlətə və orduya dəstək nümayiş etdirməyənlərin səbəblərinə dair göstəricilər hər iki qrup üzrə oxşardır.

Dəstək nümayiş etdirənlər arasında ali təhsillilərin 65,4%-i, tam orta təhsillilərin 51,3%-i digər qruplara nisbətdə sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşıb.

Evdar qadınların 44,3%-i isə sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edib. Sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edənlər arasında ali təhsillilər 40,7% təşkil etdiyi halda, peşə-ixtisas/kollec məzunları üçün bu rəqəm 28,6% olub.

"Könüllü olaraq orduda xidmətə yazıldım" variantı natamam orta təhsillilərə nisbətdə daha çox ali təhsillilər tərəfindən seçilib - müvafiq olaraq 18,6% və 6,5%. Dağlıq Qarabağın lehinə petisiyanı daha çox ali təhsilli respondentlər (14,8%) imzalasa da, tam orta təhsillilər üçün bu rəqəm 4,3%-ə bərabərdir.

Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirməyənlərin gətirdiyi başlıca səbəblər arasında "karantin qaydalarına riayət edirdim" variantını natamam orta təhsillilər (57,8%) daha çox seçib. Tam orta təhsillilər üçün bu rəqəm 47,5% təşkil edir.

Sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəyləri daha çox tələbələr paylaşıb - 83,8%. Bu istiqamətdə ikinci və üçüncü sıranı evdar qadınlar (71,8%) və dövlət sektorunda işləyənlər (63,9%) tamamlayır. Tələbələr həmçinin sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi daha çox müdafiə edib - 46%. Fərdi əmək müqaviləsi ilə işləyən üçün bu rəqəm 28%-ə bərabədir.

Təqaüdçülər arasında sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşanlar (37,8%), sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edənlər (28,8%), eləcə də hərbi hissələrdə qulluq edən əsgərlərə ərzaq yardımı edənlər (27,6%) daha geniş yayılıb.

Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirməyənlərin gətirdiyi başlıca səbəblər sırasında karantin qaydalarına riayət önə çıxır. Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirməyənlərin gətirdiyi səbəblər arasında buna ehtiyac durmayanların göstəriciləri oxşar olsa da, karantin qaydalarına riayət səbəbilə dəstək nümayiş etdirməyənlər ev təsərrüfatı ilə məşğul olanlar arasında daha çoxdur - 58,4%. Təqaüdçülərin isə 35,9%-i bu qənaəti bölüşür.

Dövlətə və orduya dəstək nümayiş etdirənlərin göstəriciləri ilə bağlı iqtisadi rayonlar arasında bir sıra variantlar üzrə fərqlər müəyyən edilib. Sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəyləri Quba-Xaçmaz əhalisinin 87,9%-i, Gəncə-Qazax əhalisinin 45,5%-i paylaşıb.

Sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi Quba-Xaçmaz əhalisinin 63,7%-i, Lənkəran əhalisinin isə 53,3%-i müdafiə edib. Ən zəif müdafiə Dağlıq Şirvan və Şəki-Zaqatala əhalisinə məxsusdur - müvafiq olaraq 8,9% və 2%. Hərbi hissələrdə qulluq edən əsgərlərə ərzaq yardımı edənlər arasında ilk üçlükdə Gəncə-Qazax (36,7%), Yuxarı Qarabağ (35%) və Aran (31,9%) gəlir.

*"Azərbaycan dövlətinə və ordusuna hansı formada dəstək nümayiş etdirdiniz?"* sualına verilən cavablardan aydın olur ki, şəhər əhalisi qəsəbə sakinlərinə nisbətən daha çox sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşıb - müvafiq olaraq 59,3% və 42,7%. Sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edənlər arasında şəhər əhalisi daha çoxdur 39,8%. Qəsəbə sakinləri üçün bu rəqəm 21,4%. Hərbi hissələrdə qulluq edən əsgərlərə ərzaq yardımı edənlər kənd əhalisi üzrə 30,4%, qəsəbə əhalisi üzrə 5 dəfə az - 6,6%, şəhər əhalisi üzrə 18,3% təşkil edir.

Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirməyənlərin gətirdiyi başlıca sə-

bəblər sırasında karantin qaydalarına riayət etmələri (48,5%) ilk sırada, mövcud vəziyyətləri isə ikinci sırada (sağlamlıq və s.) (28,8%) gəlir. Dəstək nümayiş etdirməyənlər arasında şəhər əhalisi üzrə (37,4%) mövcud vəziyyətinə (sağlamlıq və s.) görə iştirak edə bilməyənlər kənd əhalisinə (25,7%) nisbətdə daha çoxdur. Karantin qaydalarına riayət etdiyini əsas gətirənlər arasında qəsəbə sakinləri 55,4%-ə, şəhər sakinləri isə 45,3%-ə bərabərdir.

Hər üç sosial təbəqənin nümayəndələri arasında dəstəyin formalarına dair rəylərə gəlincə, burada iki fərq müşahidə edilib. Hərbi hissələrdə qulluq edən əsgərlərə ərzaq yardımı edənlər "yuxarı" təbəqədən olan əhali arasında 36,3% təşkil etdiyi halda, "aşağı" təbəqə arasında 23,7%-ə bərabədir.

Dəstəyin formalarına nəzər salsaq görərik ki, sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəyləri I Qarabağ müharibəsində iştirak etməyənlər (61%) müharibədə iştirak edənlərə (40,7%) nisbətdə daha çox paylaşıb.

I Qarabağ müharibəsində iştirak edənlər (36,7%) müharibədə iştirak etməyənlərə nisbətən (23,9%) hərbi hissələrdə qulluq edən əsgərlərə daha çox ərzaq yardımı edib.

Cəbhə bölgəsindən olanlar (42,9%) hərbi hissələrdə qulluq edən əsgərlərə daha çox ərzaq yardımı edib. Qeyri-cəbhə bölgəsində yaşayanlar üçün bu rəqəm 15,2% təşkil edir. Münaqişə bölgəsindən uzaqda yaşayanlar cəbhə bölgəsinə nisbətən şəhidlərin dəfnində daha çox iştirak edib - 32% və 17,6%.

### 4.3. Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünə ictimai münasibət

59,3% responent hesab edir ki, xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşü ilə orduya dəstək, 53,1% düşmənə qarşı birlik, 52,5%

**Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünü necə qiymətləndirirsiniz?**




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

isə xalq-ordu-dövlət birliyi nümayiş olundu.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünün müxtəlif aspektlərdən qiymətləndirilməsində iştirak edənlərin göstəriciləri ciddi surətdə fərqlənməsə də, qadınlar arasında bütün variantlar üzrə yüksək göstəricilər əldə edilib.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünə rəylər üzrə müəyyən fərqlər müşahidə edilib. "Dövlətlə birlik nümayiş olundu" variantını təqaüdçülərin 53,9%-i, işsizlərin isə 36%-i seçib. Xalq-ordu-dövlət birliyinin nümayiş olunduğunu tələbələrin 62,6%-i, özəl sektorda işləyənlərin 48,9%-i, işsizlərin isə 38,7%-i düşünür.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşü ilə orduya dəstək nümayiş olunduğunu düşünənlər arasında Aran əhalisi birinci yerdə (59,5%), Dağlıq Şirvan əhalisi isə sonuncu mövqedə qərarlaşıb (64,6%).

Lənkəran əhalisi (60,6%) xalq-ordu-dövlət birliyinin nümayiş olunduğu qənaətinə Abşerondan olan respondentlərə (38,4%) nisbətən daha çox hakimdir. Xalqın dəstək yürüşü ilə beynəlxalq aləmə müharibə istəyini göstərdiyini ən çox Quba-Xaçmazda yaşayanlar (45,9%) qeyd etdiyi halda, Dağlıq Şirvan əhalisi üçün bu rəqəm cəmi 8,4% təşkil edib. Düşmənə qarşı milli birlik nümayiş olunduğunu Quba-Xaçmazda yaşayanların 61,2%-i, Dağlıq Şirvanda yaşayanların 31,3%-i, Yuxarı Qarabağda yaşayanların isə 47,6%-i qeyd edib.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşü ilə orduya dəstək nümayiş olunduğunu qeyd edənlər arasında şəhər əhalisi 60,8%, qəsəbə əhalisi isə 50,8% təşkil edir.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünün qiymətləndirilməsinə dair rəylər oxşar olsa da, xalq-ordu-dövlət birliyi nümayiş olundu fikri "aşağı" təbəqə (43,6%) arasında "yuxarı" təbəqəyə (57,7%) nisbətən daha az yayılıb.

Xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşünə dair göstəricilər üzrə bütün yaş qrupları arasında ciddi fərq nəzərə çarpmayıb.

### 4.4. 14 iyul yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasının məqsədləri

14 iyul yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasının məqsədləri sırasında respondentlərin 24%-i tərəfindən polis-vətəndaş qarşıdurması ilk olaraq qeyd edilib. 22,7% respondentə görə, məqsəd hökumət daxilində iğtişaşlar yaradaraq 90-cı illər senarisinə meydan açmaq idi.

14 iyul yürüşünün sonunda bir qrup şəx-

sin parlamentə daxil olmasının məqsədlərinə dair qadın və kişi respondentlərin göstəriciləri fərqlənmir.

14 iyul yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasının səbəblərinə dair göstəricilər üzrə bütün yaş qrupları arasında ciddi fərq nəzərə çarpmayıb.

14 iyul dəstək yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasına dair rəylər iqtisadi rayonlar üzrə fərqlidir. Belə ki, “Xalqın orduya etibarını zədələmək” variantı Dağlıq Şirvandan olan respondentlərin 31,3%-i tərəfindən seçildiyi halda, Gəncə-Qazax əhalisi üçün bu rəqəm 21,8% təşkil edir. Ən aşağı göstərici Şəki-Zaqatalada müşahidə edilib - cəmi 4,2%.

**Sizcə, 14 iyul dəstək yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasında məqsəd nə idi?**




1. Polis-vətəndaş qarşıdurması yaratmaq
2. Hökumət daxilində siyasi iğtişaşlar yaradaraq 90-cı illər senarisinə meydan açmaq
3. Dövlətə siyasi-iqtisadi-hərbi zərbə vurmaq
4. Xalqın orduya etibarını zədələmək
5. Dağlıq Qarabağ yürüşünün milli mahiyyətinə kölgə salmaq
6. Milli qarşıdurmaya zəmin hazırlamaq
7. Xalqın diqqətini münaqişənin həllindən başqa istiqamətə yönəltmək
8. İctimai şüurda hökumətə inamsızlıq mühiti formalaşdırmaq
9. Hökuməti təxribatlarla daxili münaqişəyə cəlb edərək müharibə və pandemiya ilə mübarizədən kənarlaşdırmaq
10. Xalqda milli həmrəylik hisslərini zəiflətmək
11. Məqsədyönlü olduğunu düşünmürəm, sadəcə situativ davranış idi
12. Digər
13. ÇÇ

***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

# İNFORMASİYA BLOKU

## BLOK 5. MÜHARİBƏ ŞƏRAİTİNDƏ ƏSAS İNFORMASİYA MƏNBƏLƏRİ

Müharibə şəraitində əsas informasiya mənbələri və onlara etibarlılıq dərəcəsinin öyrənilməsi iki aspektdən mühüm əhəmiyyətə malikdir. Bunlardan birincisi aparılan tədqiqatın hərbi və dinc şəraitdə analoji istiqamət üzrə müqayisəli təhlillərin aparılması baxımından əhəmiyyətli olmasıdır, ikincisi isə dövlətin informasiya siyasətinə dəstəyin verilməsini özündə ehtiva etməsidir.

### 5.1. Televiziya əsas informasiya mənbəyi kimi

Əhalinin 78,9%-i (qadınların 83,5%-i, kişilərin 74,7%-i) müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə edir.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları ali təhsillilərin 73%-i, peşə-ixtisas/kollec məzunlarının 83,8%-i, təhsilsizlərin isə 93,4%-i televiziyadan əldə edir.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları təqaüdçülərin, evdar qadınların və ev təsərrüfatı ilə məşğul olanların 80%-dən çoxu televiziyadan əldə edir. Dövlət sektorunda çalışanlar və işsizlər üçün bu rəqəm 78% və 70,9% təşkil edir.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatı daha çox televiziyadan əldə

**Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları haradan əldə etdiniz?**




***Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.***

edənlər arasında 65 yaş qrupundan yuxarı olanlar üstünlük təşkil edir - 90,3%. 56-65 yaş qrupu arasında bu rəqəm 86,3%-dir. İnsanların yaşı artdıqca televiziyadan istifadə də artır, bunun əvəzində internetdən istifadə azalır.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə edənlər arasında şəhər əhalisinə (68,9%) nisbətən kənd əhalisinin payı daha çoxdur (83,2%).

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə edənlərin göstəriciləri iqtisadi rayonlar üzrə fərqlənir. Aran əhalisinin 92%-i, Gəncə-Qazax və Yuxarı Qarabağ əhalisinin 80%-dən çoxu müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə etdiyi halda, Bakıda yaşayanlar üçün bu rəqəm 61,2%-ə, Dağlıq Şirvanda yaşayanlar üçün 50%-ə bərabərdir.

I Qarabağ müharibəsində ön və arxa cəbhədə xidmət edənlər arasında cəbhə xəbərlərini televiziyadan əldə edənlərin göstəriciləri eynidir.

Qaçqın statusu olanların 86%-i, olmayanların isə 77,9%-i cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə edir.

Müharibə şəraitində cəbhə xəbərlərini ailə üzvlərindən hərbi xidmətdə olanların 84%-i, olmayanların 77,9%-i əsasən televiziyadan əldə edir.

Nəzərə çatdıraq ki, Sosial Tədqiqatlar Mərkəzinin "Azərbaycanın media barometri" adlı hesabatında da vətəndaşlar arasında televiziya (85,5%) əsas məlumat mənbəyi sayılırdı. İnformasiya mənbəyi kimi əhəmiyyətlilik dərəcəsinə görə televiziyadan sonrakı yerlərdə saytlar (35,3%) və sosial şəbəkələr (25,8%) gəlirdi.

### 5.2. Televiziya kanalları

Müharibə şəraitində ən çox baxılan televiziya Xəzər TV-dir ki, əhalinin 77%-i cəbhə məlumatlarını daha çox bu kanaldan əldə edir. Cəbhə xəbərlərini Xəzər TV-dən əldə edənlər arasında kənd (79,5%) və şəhər (69,6%) əhalisinin göstəriciləri fərqlənir.

Baxımlılığına görə ikinci sırada ATV kanalı gəlir ki, əhalinin 58,9%-i cəbhə xəbərlərini əldə etmək üçün bu kanala üz tutur. Üçüncü sıranı 46,7%-lə AzTV-nin izləyiciləri bölüşür. Dövlət sektorunda işləyənlər digər qruplara nisbətən

cəbhə məlumatlarını daha çox AzTV-dən əldə edir - 51,3%.

Növbəti pillələrdə isə Real TV (36,8%), İTV (26%) və Space TV (23,3%) qərarlaşır.

Nəzərə çatdıraq ki, 12 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca gedən döyüşlər zamanı televiziya kanallarının dövlətin informasiya cəbhəsindəki mübarizəsinə töhfəsi diqqətdən yayına bilməz. Xüsusilə də Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsi dövründə internet məkanının məhdud olması sosial şəbəkələrin bu işdə effektini aşağı saldı ki, bunun nəticəsində də dövlətin informasiya siyasətində televiziyaların rolu daha da artmağa başladı. Bu baxımdan qeyd olunan telekanalların müharibə dövründə cəmiyyəti mütəmadi olaraq dolğun informasiya ilə təmin etmələri ilə yanaşı, efir vaxtlarının əsas hissəsini müharibəyə həsr etmələri onların reytinqinə təsir edən səbəblərdən biri ola bilər.

Müharibə şəraitində cəbhə məlumatlarını digər regionlara nisbətdə Lənkərandan olan respondentlər daha çox AzTV-dən əldə edir - 64,3% . AzTV-nin Quba-Xaçmazdan olan izləyiciləri isə 49% təşkil edir. Abşeron (87,9%) və Quba-Xaçmaz əhalisi (87,3%) müharibə şəraitində cəbhədə gedən prosesləri daha çox Xəzər TV-dən izləyir. Yuxarı Qarabağ (64,4%) və Quba-Xaçmazda (69%) yaşayanların müharibə şəraitində informasiya təminatında ATV kanalı əsas yer tutur.

Müharibə şəraitində cəbhə məlumatlarını daha çox dövlət televiziyasından 46-55 (53,3%) və 56-65 yaş qrupundan olan (53,5%) respondentlər əldə edir. Cəbhədə gedən prosesləri ATV-dən izləyənlər digər yaş qruplarına nisbətən 26-35 (63,3%), 65 və daha yuxarı yaş qrupu (62,4%) arasında daha çoxdur. Cəbhə xəbərlərini Xəzər TV-dən əldə edənlərin göstəriciləri bütün yaş qrupları üzrə oxşar olsa da, 18-25 yaş qrupu (80,6%) arasında məlum səbəbdən bu kanala üz tutanlar nisbətən çoxluq təşkil edir.

Peşə-ixtisas/kollec məzunları (50,2%) və ali təhsillilər (50,6%) cəbhədə baş verənləri digər qruplarla müqayisədə daha çox AzTV-dən izləyir. ATV-nin izləyiciləri arasında tam orta təhsilli və ali təhsillilərin göstəriciləri demək olar ki eynidir (59,2% və 59%). Cəbhə xəbərlərini Xəzər TV-dən əldə edənlərin göstəriciləri çox fərqlənməsə də, natamam orta təhsillilərin 82%-i, ali təhsillilərin 69,4%-i cəbhə məlumatlarını məhz bu telekanaldan əldə edir.

İnternet televiziyaları içərisində Meydan TV (36,8%) və Kanal 13 (36,8%) daha çox baxılır. APA TV isə 29,2% göstərici ilə üçüncü pillədə qərarlaşır.

**Müharibədə baş verənlərlə bağlı məlumatları hansı TV kanallarından əldə edirsiniz?**




**Müharibədə baş verənlərlə bağlı məlumatları internet televiziyada hansı kanallardan əldə edirsiniz?**




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

### 5.3. Televiziyalara etibarlılıq dərəcələri

Respondentlərin 83,4%-i televiziyadan aldığı məlumata daha çox etibar edir. Qadınların 87,5%-i, kişilərin isə 79,7%-i bu mənbəyə etibar etdiyini bildirib.

Hər təhsil səviyyəsi üzrə televiziyadan aldığı məlumata bu və ya digər dərəcədə etibar edən-

**Bu mənbələrdən aldığınız məlumata nə dərəcədə etibar edirsiniz?**



lərin göstəriciləri oxşar olsa da (80%-dən çox), peşə-ixtisas/kollec məzunları az fərqlə irəlidədir (87,6%).

Məşğuliyyət qrupları arasında dövlət sektorunda işləyənlər, təqaüdçülər və evdar qadınlar televiziyadan aldığı məlumata digər qruplara nisbətən bu və ya digər dərəcədə daha çox etibar edir (80%-dən çox). Özəl sektorda çalışanlar üçün bu rəqəm 69,2% təşkil edir.

Cəbhə xəbərlərini televiziyadan əldə edən kənd əhalisi (86,7%) şəhər əhalisi (74,4%) ilə müqayisədə bu mənbəyə müxtəlif dərəcələrdə daha çox etibar edir. Başqa sözlə desək, qəsəbə sakinləri televiziyadan əldə etdiyi məlumata bu və ya digər dərəcədə etibar etməyənlər arasında çoxluq təşkil edir - 21,5%.

Yaş səviyyəsi artıqda televiziyaya etibarlılıq dərəcəsi də artır. Bütün yaş qruplarının müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı televiziyadan aldığı məlumata etibarı bu və ya digər dərəcədə yüksəkdir.

Müharibə zamanı televiziyadan aldığı məlumata özünü "yuxarı" təbəqəyə aid edənlər "aşağı" təbəqəyə nisbətən bu və ya digər dərəcədə daha çox etibar edir - 91,6% və 73,2%.

Müharibə şəraitində cəbhə xəbərlərini televiziyadan əldə edənlər arasında bu mənbəyə "yuxarı" təbəqənin 59,4%-i, "orta" təbəqənin 49,6%-i, "aşağı" təbəqənin 33,9%-i tam etibar edir.

Televiziyadan aldığı məlumata Yuxarı Qarabağda yaşayanlar bu və ya digər dərəcədə (90%) daha çox, Şəki-Zaqatalada yaşayanlar isə bu və ya digər dərəcədə ən az etibar edən qrupdur - 62,6%.

I Qarabağ müharibəsində ön və arxa cəbhədə xidmət edənlər arasında televiziyadan aldığı cəbhə xəbərlərinə bu və ya digər dərəcədə etibar edənlərin göstəriciləri ciddi dərəcədə fərqlənmir.

Cəbhə bölgəsindən olanlar qeyri-cəbhə bölgəsinə nisbətən bu və ya digər dərəcədə televiziyaya daha çox etibar edir - müvafiq olaraq 88,9% və 79,6%.

Nəzərə çatdıraq ki, Sosial Tədqiqatlar Mərkəzinin "Azərbaycanın media barometri" adlı hesabatında respondentlərin əksəriyyəti (84,1%) digər KİV-lərə nisbətən dinc dövrdə də televiziyadan aldığı informasiyaya daha çox etibar edirdi.




*Respondentlərə bir neçə variant seçmək imkanı verildiyindən alınan cavabların toplam faizi 100%-dən fərqlidir.*

### 5.4. Sosial şəbəkələr

İnformasiya əldə etmə mənbələri sırasında ikinci yerdə sosial şəbəkələr qərarlaşır ki, əhalinin 47,2%-i cəbhədə gedən proseslərlə bağlı məlumatı əldə etmək üçün bu mənbədən istifadə edir.

Sosial şəbəkələrdən informasiya əldə edən qadınların (42,3%) və kişilərin (47%) sayı arasında ciddi fərq yoxdur.

Cəbhə məlumatlarını sosial şəbəkələrdən alanların göstəricilərinə gəlincə, ali təhsillilərin 57,3%-i, tam orta təhsillilərin 44,6%-i cəbhədə baş verənlərlə bağlı məlumatları sosial şəbəkələrdən əldə edir.

Cəbhə xəbərlərini Dağlıq Şirvan (79,2%) və Abşeron əhalisi (76,8%) daha çox sosial şəbəkələrdən əldə edir. Şəki Zaqatalada 63,9%, Lənkəranda 52,2%, Gəncə-Qazaxda 45,2%, Yuxarı Qarabağda 34,9% respondent cəbhə məlumatlarını əldə etmək üçün bu mənbəyə üz tutur.

Bu cür məlumatları sosial şəbəkələrdən əldə edənlər hər üç yaşayış yeri - şəhər, qəsəbə və kənd üzrə fərqlənmir.

Cəbhə xəbərlərini sosial şəbəkələrdən əldə edənlər 18-25 (73,8%) və 26-35 yaş qrupundan olanlar (65,5%) arasında daha geniş yayılıb. Paralel olaraq yaş azaldıqca internetdən, xüsusən də sosial şəbəkələrdən istifadə artır, televiziyadan istifadə isə azalır.

Sosial şəbəkələr arasında Facebook 58,4%-lə ilk pillədə qərarlaşır.

Birinci Qarabağ müharibəsində ön cəbhədə xidmət edənlərin 46,3%-i, arxa cəbhədə xidmət edənlərin isə 30,8%-i cəbhə xəbərlərini Facebookdan əldə edir.

Sosial şəbəkələr üzrə əsas fərq cəbhə xəbərlərini Facebookdan əldə edən qaçqın (50%) və qeyri-qaçqın əhali (37,9%) arasında müşahidə edilib.

Sosial şəbəkələr arasında Youtube (38,9%) baxımlılığına görə, ikinci pillədədir və bu sosial şəbəkəyə üz tutanlar arasında gender aspektindən ciddi fərq müşahidə edilmir.

Özünü "yuxarı" təbəqəyə aid edənlər (71%) cəbhə xəbərlərini "orta" (57,9%) və "aşağı" təbəqənin (56,5%) nümayəndələrinə nisbətən daha çox Youtube sosial şəbəkəsindən əldə

edir.

Cəbhədə gedən prosesləri Youtube sosial şəbəkəsindən kənddə yaşayanların 62,7%-i izlədiyi halda, şəhər əhalisi üçün bu rəqəm 50,6%, qəsəbə sakinləri üçün 40% təşkil edir. Cəbhə bölgəsinin sakinləri sosial şəbəkələr arasında daha çox Youtube müraciət edir - 65,6%. Qeyri-cəbhə bölgəsinin sakinləri üçün bu rəqəm 54,7%-dir.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatı Şəki-Zaqatalada yaşayanlar nisbətən daha çox Facebookdan əldə etdiyi halda (54,4%), Quba-Xaçmaz və Gəncə Qazax əhalisi üçün Youtube daha spesifikdir (63,7%) və (63,9%).

Instagram isə 37,5%-lə üçüncü yerdə qərarlaşır. Maraqlıdır, qadınların 43,5%-i Instagrama üz tutduğu halda, 30%-i cəbhə məlumatlarını Facebookdan alır. Əks cinsin nümayəndələrindən fərqli olaraq kişilər cəbhə xəbərlərini Instagrama nisbətən (31,9%) daha çox Facebookdan (47,5%) əldə edirlər. Cəbhədə gedən proseslərlə bağlı məlumatı əldə etmək məqsədilə Instagrama daha çox qəsəbə sakinləri üz tutur ki, onlar da kənd əhalisinə nisbətdə üstünlük təşkil edirlər - 51,7% və 35,2%.

### 5.5. Sosial şəbəkələrə etibarlılıq dərəcəsi

Respondentlərin 44,3%-i sosial şəbəkələrdən əldə etdiyi cəbhə xəbərlərinə müxtəlif dərəcələrdə etibar edir.

Münaqişə bölgəsindən uzaqda yaşayanlar sosial şəbəkələrdən əldə etdiyi cəbhə xəbərlərinə cəbhə bölgəsinin sakinlərinə nisbətən bu və ya digər dərəcədə daha çox etibar edir - 49,3% və 37,2%.

Müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatı sosial şəbəkələrdən əldə edənlərin digər demoqrafik qruplar üzrə göstəriciləri fərqlənmir.

### 5.6. Ətrafdakı insanlar

Televiziya və sosial şəbəkələrdən sonra müharibə şəraitində əhalinin üçüncü əsas məlumat mənbəyi ətrafdakı insanlardır (17,8%).

Bu mənbədən informasiya əldə edən qadınlar və kişilər arasında ciddi fərq yoxdur.

Məlumat mənbəyi olaraq ətrafdakı insanlara üz tutanlar natamam orta təhsillilər arasında (30,7%) ali təhsillilərlə (16,5%) müqayisədə nisbətən daha geniş yayılıb.

Respondentlərin 35,9%-i ətrafdakı insanlardan aldığı məlumata bu və ya digər dərəcədə etibar edir.

### 5.7. Sosial şəbəkələrlə televiziyaların müqayisəsi

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* fikri ilə 58,8% respondent razılaşdığını qeyd edib.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* fikri və məlumat mənbələri arasındakı statistik əhəmiyyətli əlaqə ($X^2(10)=284,869$, $p<0.01$) aşkarlanıb. Belə ki, bu fikirlə razılaşanlar informasiyanı daha çox sosial şəbəkələrdən (66,1%) və televiziyadan (71,1%) əldə edənlər respondentlər arasında yayılıb. Başqa sözlə, qeyd olunan fikirlə razılaşanların əksəriyyəti bu iki qrupda cəmlənib, digər qruplarla fərq əhəmiyyyətli dərəcədə böyükdür. Maraq üçün onu da qeyd edə bilərik ki, informasiyanı daha çox sosial şəbəkələrdən (Youtube, Instagram, Facebook) əldə edənlər arasında qeyd olunan fikirlə razılaşanlar 66,1%, razılaşmayanlar isə 32,4% təşkil edib ki, bu da müəyyən fikir ayrılığından xəbər verir. Oxşar olaraq, *"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* fikri ilə razılaşmayanlar informasiyanı daha çox sosial şəbəkələrdən (32,4%) və televiziyadan (86,7%) əldə edən respondentlər arasında yayılıb. Başqa sözlə, qeyd olunan fikirlə razılaşmayanların əksəriyyəti bu iki qrupda cəmlənib, digər qruplarla fərq əhəmiyyyətli dərəcədə böyükdür.

Sosial şəbəkələrin cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verdiyini düşünənlərin göstəricisi 50% təşkil edir.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verir"* fikri və məlumat mənbələri arasındakı statistik əhəmiyyətli əlaqə ($X^2(10)=195,829$, $p<0.01$) aşkarlanıb. Bu fikirlə

**Aşağıdakı fikirlərlə nə dərəcədə razısınız?**



razılaşanlar informasiyanı daha çox sosial şəbəkələrdən (66,5%) və TV-dən (70,3%) alan respondentlər arasında yayılıb. Başqa sözlə, qeyd olunan fikirlə razılaşanların əksəriyyəti bu iki qrupda cəmlənib, digər qruplarla fərq əhəmiyyyətli dərəcədə böyükdür. İnformasiyanı daha çox sosial şəbəkələrdən (Youtube, Instagram, Facebook) əldə edənlər arasında sadalanan fikirlə razılaşanlar 66,5%, razılaşmayanlar isə 41,2% təşkil edib ki, bu da müəyyən fikir ayrılığından xəbər verir. Sosial şəbəkələrin cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verdiyi ilə razılaşmayanlar informasiyanı daha çox sosial şəbəkələrdən (41,2%) və televiziyadan (83,8%) əldə edən respondentlər arasında yayılıb. Başqa sözlə, qeyd olunan fikirlə razılaşmayanların əksəriyyəti bu iki qrupda cəmlənib, digər qruplarla əhəmiyyyətli dərəcədə fərq müəyyən edilib.

Bu iki fikirlə müxtəlif dərəcələrdə razılaşanlar arasında gender və təhsil səviyyələri üzrə ciddi fərq müəyyən edilməyib.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* fikrinə dair rəylərə gəlincə, tələbələr (75%) bu fikirlə bu və ya digər dərəcədə ən çox, təqaüdçülər (44,5%) isə ən az razılaşan qrupdur.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verir"* fikri ilə tələbələr 62,5%-lə ən çox, təqaüdçülər 36,6%-lə bu və ya digər dərəcədə ən az razılaşan qrupdur.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* fikri ilə bu və ya digər dərəcədə razılaşan şəhər əhalisinin (68,7%) ümumi göstəricisi kənd əhalisinə (55,6%) nisbətən daha çoxdur.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verir"* qənaətinə müxtəlif dərəcələrdə hakim olan qəsəbə (58%) və şəhər sakinləri (57,1%) kənd əhalisinə (47,3%) nisbətdə üstünlük təşkil edir.

I Qarabağ müharibəsində ön cəbhədə xidmət edənlər (55%) "Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir" fikri ilə müharibədə arxa cəbhədə xidmət edənlərə nisbətən (44,09%) bu və ya digər dərəcədə daha çox razılaşır. Analoji nəticəni hər iki qrup üzrə "Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verir" fikrini bölüşənlərə də şamil etmək olar.

*"Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir"* (75,5%) və "Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verir" (63,1%) fikri ilə 18-25 yaş qrupu bu və ya digər dərəcədə daha çox razılaşır. İrəli sürülmüş hər iki mülahizə üzrə bir sıra kateqoriyalar arasında ciddi fərq müşahidə edilməyib. Lakin münaqişə bölgəsindən uzaqda yaşayanlar (55,3%) cəbhə bölgəsinin sakinlərinə (42,6%) nisbətən sosial şəbəkələrin cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verdiyi qənaətinə daha çox hakimdir.

# NƏTİCƏ

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 24 avqust - 9 sentyabr 2020-ci il tarixində ölkə miqyasında həyata keçirilən sorğunun nəticələri göstərdi ki, müharibənin yaxın tarixdə başlayacağına əmin olan respondentlərin mütləq əksəriyyəti Azərbaycan dövlətinin və xalqının müharibəyə hazır olduğunu bildirir, eləcə də ordunun gücünü yüksək qiymətləndirir. Xüsusilə qeyd etmək lazımdır ki, ölkə əhalisinin mütləq əksəriyyəti birmənalı şəkildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həll ediləcəyinə inanır ki, məhz bu fakt bu gün öz əyani təsdiqini tapır.

❖ Əhalinin yarıdan çoxu (56,1%) müharibənin yaxın tarixdə başlayacağına bu və ya digər dərəcədə inanır. Müharibənin yaxın tarixdə başlayacağına ən çox inananlar Yuxarı Qarabağdan olan respondentlərdir (43,7% “çox inanıram”, 25% “əsasən inanıram”).

❖ Respondentlərin mütləq əksəriyyəti (94,4%) Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğu bildirib. I Qarabağ müharibəsində iştirakından asılı olmayaraq, Azərbaycan dövlətinin müharibəyə tam hazır olduğuna dair qrupların inam göstəriciləri demək olar ki eynidir - 94,2% və 94,4%. Yaşadığı bölgədən (cəbhə və ya qeyri-cəbhə bölgəsi) asılı olmayaraq, respondentlər demək olar ki, eyni dərəcədə Azərbaycan dövlətinin (94,9% və 94%) müharibəyə tam hazır olduğunu bildirib.

❖ 94,8% respondent Azərbaycan xalqının müharibəyə tam hazır olduğunu qeyd edib. Azərbaycan xalqının müharibəyə tam hazır olduğunu ailə üzvlərindən hazırda hərbi xidmətdə olanların 96,8%-i, olmayanların isə 94,5%-i bildirib. Yaşadığı bölgədən (cəbhə və ya qeyri-cəbhə bölgəsi) asılı olmayaraq, respondentlər demək olar ki, oxşar dərəcədə Azərbaycan xalqının (93,7% və 96,4%) müharibəyə tam hazır olduğunu bildirib.

❖ Əhalinin 98%-i Azərbaycan ordusunun gücünü çox yüksək qiymətləndirir. Əgər Ermənistanla sərhəd və Dağlıq Qarabağla təmas xəttində yaşayanların 98,2%-i Azərbaycan ordusunun gücünü çox yüksək olaraq qiymətləndirirsə, digər bölgələrdə yaşayanlar üçün bu göstərici 97,9% təşkil edir.

❖ 93,1% respondent yalnız hazırkı ölkə rəhbərliyinin Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inanır ki, bu fakt da bu gün Azərbaycan torpaqlarının məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi, rasional və uzaqgörən siyasəti nəticəsində işğaldan azad olunması ilə birbaşa öz əyani təsdiqini tapır. *“Yalnız hazırkı ölkə rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll edəcəyinə inanırsınızmı?”* sualına “bəli” cavabı verənlər Ermənistanla sərhəd və Dağlıq Qarabağla təmas xəttində yaşayanlar arasında digər bölgələrdə yaşayan sakinlərə nisbətən daha geniş yayılıb (90,5% və 77,9%). *“Yalnız Ali Baş Komandanın rəhbərliyi altında Dağlıq Qarabağ məsələsinin hərbi yolla həll ediləcəyinə inanırsınızmı?”* sualına I Qarabağ müharibəsində iştirakından asılı olmayaraq hər iki əhali qrupu üzrə eyni göstəricilər müşahidə edilib (83% və 83,2%).

❖ Yalnız Ali Baş Komandanın Dağlıq Qarabağ məsələsini hərbi yolla həll edəcəyinə inamın səbəbləri sırasında ilk yerdə hakimiyyətin güclü ordu quruculuğu siyasəti (57,6%) dayanırsa, ölkə rəhbərinin geosiyasi mühiti düzgün dəyərləndirməsi (48,2%), düşmən üzərində son dövrlərdə qələbələrin əldə edilməsi (39,9%) və bir sıra ölkələrlə uğurlu hərbi əməkdaşlıq (34,2%) Dağlıq Qarabağ probleminin yalnız indiki hakimiyyətin rəhbərliyi altında hərbi yolla həllini mümkün edir.

❖ Mümkün müharibə şəraitində Azərbaycana dəstək verəcək ölkələr kimi ən çox bu dövlətlərin adları çəkilib - Türkiyə (99,8%), Pakistan (99,6%) və Ukrayna (93,2%).

❖ Dəstəyin istiqamətləri kimi Azərbaycan üçün ən çox seçilən variant “bütün istiqamətlər” (87,5%), Ermənistan üçün isə “hərbi” istiqamət (82,4%) olub. Cəbhə bölgəsində yaşayanlar qeyri-cəbhə bölgəsinin sakinlərinə nisbətən ölkəmizə daha çox iqtisadi, humanitar və informasiya dəstəyi gözləyir.

❖ Əhalinin yarıdan çoxu (53,8%) Rusiyanın müharibənin başlamasına əngəl olmasını indiyə qədər Dağlıq Qarabağ probleminin həllinin gecikməsində əsas maneə olaraq görürsə, burada ikinci amil kimi böyük dövlətlərin (ABŞ, Rusiya, Fransa) problemin həll edilməməsində maraqlı olması (48,1%) önə çıxır ki, bu gün də sözügedən dövlətlərin mövcud vəziyyətə qeyri-adekvat mövqeləri bir daha bu nəticələri təsdiqləyir. Respondentlər həm də hesab edirlər ki, BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrini yerinə yetirməməsi (42,8%), həmçinin erməni diasporunun xaricdə güclü fəaliyyəti (27,1%) problemin həllinin gecikməsini şərtləndirir. Yuxarı Qarabağda “BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrini yerinə yetirməməsi”nin problemin həllini gecikdirdiyini

düşünənlər daha çoxdur - 47%.

❖ Rəyi öyrənilənlərin 89,6%-i İkinci Qarabağ müharibəsinin başlanması ilə Dağlıq Qarabağ və ətraf 7 rayonun azad ediləcəyini qeyd edib. 30,5% respondent bu savaşla "məğlub xalq" sindromunun aradan qalxacağı ehtimalını bölüşür ki, hazırda Azərbaycanın qalib obrazı istər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda yaşayan hər bir vətəndaşımızın qürur mənbəyinə çevrilib.

❖ Əhalinin təxminən yarıya yaxını (44,5%) münaqişənin həlli baxımından Azərbaycan dövlətinin hərbi cəhətdən daha da güclənməsini vacib hesab etsə də, əks-hücum əməliyyatlarının miqyası və intensivliyi ordunun gücü və peşəkarlığı ilə bağlı bütün əks stereotipləri birmənalı şəkildə alt-üst etdi. Azərbaycanın birbaşa Rusiya ilə danışıqlara başlamasını 42,9%, Azərbaycanın xarici tərəfdaşlarının sayını daha da artırmalı olduğunu isə 37,4% respondent irəli sürüb.

❖ Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsi ilə Ermənistan ordusundan güclü olduğunu sübut etdiyini düşünən respondentlərin göstəricisi 69,8% təşkil edir. Ordumuzun düşmən təxribatının qarşısını vaxtında ala bildiyi (61,8%) və müharibədə düşməni təkbaşına məğlub etməyə qadir olduğu (59,6%) erməni təxribatına cavab zərbələrinin əsas nəticələri olaraq meydana çıxır. Hər üç fakt bu gün Azərbaycan ordusunun ərazi bütövlüyü uğrunda apardığı intensiv hərbi əməliyyatların mühüm nəticəsi kimi də dəyərləndirilə bilər. Münaqişə bölgəsində yaşayanlar Azərbaycan ordusunun erməni silahlı qüvvələrinin təxribatına cavab zərbəsi ilə ordumuzun düşmən təxribatının qarşısını vaxtında ala bildiyini (64,5% və 59,9%), Ermənistan ordusundan güclü olduğunu (70,3% və 69,4%), eləcə də müharibədə düşməni təkbaşına məğlub etməyə qadir olduğunu göstərdiyini (60,7% və 58,9%) qeyri-cəbhə bölgəsinin sakinlərinə nisbətən daha çox düşünür.

❖ Ermənistanın 12 iyul 2020-ci il tarixində Azərbaycanla sərhəddə hücuma keçməsini 56,8% respondent düşmənin həmin regiondakı beynəlxalq layihələrə (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars) zərbə vurmaq istəyi ilə əlaqəndirirdisə, 46,2% respondent Ermənistanın qəsdən Azərbaycanı təxribata çəkdiyini qeyd edib. Respondentlər Ermənistanın aprel məğlubiyyətinin əvəzini çıxmaq istəyini də (29,9%) Tovuz təxribatının səbəblərindən biri olaraq görürlər.

❖ Tovuz döyüşlərindən sonra yaranmış şərait fonunda Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin qaçılmaz olacağını respondentlərin təxminən yarıya yaxını (46,5%) qeyd edib. Bu fikrə ali təhsillilər arasında 50,2% respondent hakimdir. Gözlənilən dəyişikliklərdən biri də onunla bağlıdır ki, geosiyasi təcrid Ermənistanda siyasi böhrana yol açacaq və bu da onların hərbi uğursuzluğuna səbəb olacaq (35,5%). Bu istiqamət üzrə sorğu nəticələri hazırkı vəziyyətdə Ermənistanın mövcud durumu ilə üst-üstə düşür.

❖ Əhalinin əhəmiyyətli hissəsi (72%) bu və ya digər dərəcədə 12 iyul hadisələrindən sonra yaranmış vəziyyəti problemin həllində tarixi fürsət olaraq dəyərləndirir. Ailə üzvələrindən hərbi xidmətdə olanlar (58,3% "tamamilə razıyam" və 18,7% "əsasən razıyam") hazırkı vəziyyətin problemin həllində tarixi fürsət olması fikri ilə digər qrupa nisbətdə bu və ya digər dərəcədə daha çox razılaşır.

❖ Respondentlərin əhəmiyyətli hissəsi Azərbaycan ordusunun düşmənin Tovuz rayonundakı təxribatına cavab olaraq Dağlıq Qarabağ və digər cəbhələrdə hücuma keçməli olduğunu bildirib (79,4%).

❖ Əhalinin əhəmiyyətli hissəsi (78,1%) müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edəcəyini deyib. Özünü "tam təhlükəsiz" hiss edəcəyini deyənlər 49,9%, "qismən təhlükəsiz" hiss edəcəyini qeyd edənlər 28,2% təşkil edir. Kişilərin 83,3%-i, qadınların isə 72,8%-i müharibə zamanı özünü bu və ya digər dərəcədə təhlükəsiz hiss edəcəyini bildirib. 18-25 (82,4%) və 26-35 yaş qrupundan olanlar (84,7%) müharibə zamanı özünü digər qruplara nisbətən bu və ya digər dərəcədə daha çox təhlükəsiz hiss edəcəklərini qeyd ediblər.

❖ Əhalinin 91,2%-i "Özünüz/ailə üzvləriniz müharibədə iştirak üçün cəbhəyə gedərmi?" sualına "bəli" cavabını verib. Kişilərlə yanaşı (96,8%), qadınların da əksəriyyəti özlərinin və ailə üzvlərinin (85,5%) müharibədə iştirak üçün cəbhəyə gedəcəyini bildirib. Bütün yaş qrupları üzrə mütləq əksəriyyət (90%-dən çox) müharibədə iştirak üçün cəbhəyə gedəcəyini qeyd edib. Nisbətən aşağı göstərici 65-dən yuxarı yaş qrupu (88,1%) arasında müşahidə edilib ki, əslində bu göstərici sözügedən yaş kateqoriyası üzrə olduqca yüksək nəticə hesab edilə bilər.

❖ Azərbaycanın I Qarabağ müharibəsində itirdiyi torpaqların son döyüşlərlə geri qaytarılmasında 73,1% respondent xalq-prezident birliyi faktorunu, 52,1% respondent isə Azərbaycan dövlətinin güclü ordu quruculuğu və hərb siyasəti amilini əsas tutur.

❖ Tovuz rayonundakı təxribatla bağlı Rusiyanın sərgilədiyi mövqeyə gəlincə, 86,6% respondent hesab edir ki, Rusiyanı daha çox Ermənistandakı hərbi bazası maraqlandırır. Rusiyanın məlum mövqeyini bu münaqişədə Türkiyə ilə üz-üzə gəlmək istəməməsi ilə əlaqləndirənlərin göstəricisi 73,3% təşkil edir.

❖ Respondentlərin 52,6%-i ABŞ tarixində ilk dəfə olaraq Konqresdə Dağlıq Qarabağın işğal faktını tanıyan ən sərt qanun layihəsinin münaqişənin həllinə müsbət təsir edəcəyini düşünsə də, 32,2% respondent heç bir təsirinin olmayacağı qənaətindədir.

❖ ATƏT-in Minsk qrupunun münaqişənin tənzimlənməsindəki fəaliyyətini əhalinin 81,8%-i "pis" qiymətləndirib.

❖ Müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə mütləq əksəriyyət inamını ifadə edib ki, bu göstərici 94,9% təşkil edir.

❖ Respondentlərin böyük hissəsi müharibə zamanı türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə dost-qardaş ölkə olduğumuza görə inanır (90,8%).

❖ Türk ordusunun ölkəmizə birbaşa hərbi dəstəyinə inanmayanlar bunu Türkiyənin Rusiya ilə üz-üzə gəlmək (63,9%) və əlavə cəbhə açmaq istəməməsi (48,5%) ilə əlaqləndirib.

❖ Prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını respondentlərin 87,6%-i bu və ya digər dərəcədə "yaxşı" qiymətləndirib. Qaçqın statusu olanların 91,3%-i, olmayanların isə 87,2%-i prezidentin Xarici İşlər Nazirliyində həyata keçirdiyi kadr islahatlarını bu və ya digər dərəcədə "yaxşı" qiymətləndirir.

❖ XİN-dəki yeni təyinatın Azərbaycanın xarici siyasətində səbəb olacağı dəyişikliklərə gəlincə, ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcəyini 43,3%, Dağlıq Qarabağ cəbhəsində hərbi-siyasi prosesə müsbət təsir edəcəyini 32,1%, XİN-in fəaliyyətinin daha aktiv, sistemli, çevik və beynəlxalq çağırışlara uyğun olacağını 29,7% qeyd edib.

❖ Tovuzdakı aktiv hərbi əməliyyatlar zamanı əhalinin yarıdan çoxu Azərbaycan dövlətinə (48,4%) və ordusuna (48,6%) dəstək nümayiş etdirib. Kişilər qadınlara nisbətdə Tovuzda aktiv hərbi əməliyyatlar zamanı Azərbaycan ordusuna (kişilər 59%, qadınlar 37,8%) və dövlətinə (kişilər 58,6%, qadınlar 37,6%) daha çox dəstək nümayiş etdirib. Azərbaycan dövlətinə dəstək nümayiş etdirən 18-25 (56,7%) və 26-35 yaş qrupları (57,8%) digər yaş qruplarına nisbətən çoxluq təşkil edib.

❖ Dövlətə dəstək nümayiş etdirməyənlər 51,6%, orduya dəstək nümayiş etdirməyənlər 51,4% təşkil edib.

❖ Əhalinin 57,2%-i sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəylər paylaşıb. İkinci sırada 34,8%-lə sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi müdafiə edənlər qərarlaşır. Sosial şəbəkələrdə vətənpərvərlik ruhunda rəyləri daha çox tələbələr paylaşıb - 83,8%. Bu istiqamətdə ikinci və üçüncü sıranı evdar qadınlar (71,8%) və dövlət sektorunda işləyənlər (63,9%) tamamlayır. Tələbələr həmçinin sosial şəbəkələrdə ermənilərə qarşı dövlətimizi daha çox müdafiə ediblər - 46%. Cəbhə bölgəsindən olanlar (42,9%) hərbi hissələrdə qulluq edən əsgərlərə daha çox ərzaq yardımı edib. Qeyri-cəbhə bölgəsində yaşayanlar üçün bu rəqəm 15,2% təşkil edir. Münaqişə bölgəsindən uzaqda yaşayanlar cəbhə bölgəsinə nisbətən şəhidlərin dəfnində daha çox iştirak edib - 32% və 17,6%.

❖ Azərbaycan dövlətinə və ordusuna dəstək nümayiş etdirməyənlərin gətirdiyi başlıca səbəblər sırasında karantin qaydalarına riayət etmələri (48,5%) ilk sırada, mövcud vəziyyətləri isə ikinci sırada (sağlamlıq və s.) (28,8%) gəlir.

❖ 59,3% respondent hesab edir ki, xalqın dövlətə və Ali Baş Komandana dəstək yürüşü ilə orduya dəstək, 53,1% respondentin fikrincə, düşmənə qarşı birlik, 52,5%-in qənaətinə görə xalq-ordu-dövlət birliyi nümayiş olundu.

❖ 14 iyul yürüşünün sonunda bir qrup şəxsin parlamentə daxil olmasının məqsədləri sırasında ilk olaraq respondentlərin 24%-i tərəfindən polis-vətəndaş qarşıdurması qeyd edilib. 22,7% respondentə görə, məqsəd hökumət daxilində iğtişaşlar yaradaraq 1990-cı illər senarisinə meydan açmaq idi.

❖ Əhalinin 78,9%-i müharibə şəraitində cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyadan əldə edir. Müharibə dövründə ən çox baxılan televiziya kanalı Xəzər TV-dir. Əhalinin 77%-i cəbhə məlumatlarını daha çox bu kanaldan əldə edir. Baxımlılığına görə, ikinci sırada ATV dayanır ki, əhalinin 58,9%-i cəbhə xəbərlərini əldə etmək üçün bu kanala üz tutur. Üçüncü sıranı 46,7%-lə AzTV-nin izləyiciləri bölüşür. Növbəti pillələrdə isə Real TV (36,8%), İTV (26%) və Space TV (23,3%) qərarlaşır. Respondentlərin 83,4%-i televiziyadan aldığı məlumata daha çox etibar edir. Nəzərə çatdıraq ki, 12 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca gedən döyüşlər zamanı televiziya kanallarının

dövlətin informasiya cəbhəsindəki mübarizəsinə töhfəsi diqqətdən yayına bilməz. Xüsusilə də Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsi dövründə internet məkanının məhdud olması sosial şəbəkələrin bu işdə effektini aşağı saldı ki, bunun nəticəsində də televiziyalar daha çox önə çıxmağa başladı. Bu baxımdan qeyd olunan telekanalların müharibə dövründə cəmiyyəti mütəmadi olaraq dolğun informasiya ilə təmin etmələri ilə yanaşı, efir vaxtlarının əsas hissəsini müharibəyə həsr etmələri onların reytinqinə təsir edən səbəblərdən biri ola bilər.

❖ İnformasiya əldə etmə mənbələri sırasında ikinci yerdə sosial şəbəkələr qərarlaşır ki, əhalinin 47,2%-i cəbhədə baş verənlərlə bağlı məlumatları əldə etmək üçün bu mənbədən istifadə edir. Sosial şəbəkələr arasında Facebook 58,4%-lə ilk pillədə yer alıb. Youtube (38,9%) baxımlılığına görə ikinci, Instagram isə 37,5%-lə üçüncü sırada yer alıb. Respondentlərin 44,3%-i sosial şəbəkələrdən əldə etdiyi cəbhə xəbərlərinə etibar edir.

❖ Televiziya və sosial şəbəkələrdən sonra müharibə şəraitində əhalinin üçüncü əsas məlumat mənbəyi ətrafdakı insanlardır (17,8%). Respondentlərin 35,9%-i ətrafdakı insanlardan aldığı məlumata etibar edir.

❖ “Sosial şəbəkələr cəbhədə baş verənlərlə bağlı məlumatları televiziyaya nisbətən daha operativ verir” fikri ilə 58,8% respondent razı olduğunu qeyd edib.

❖ Sosial şəbəkələrin cəbhədə baş verənlərlə bağlı məlumatları televiziya ilə müqayisədə olduğu kimi verdiyini düşünənlərin göstəricisi 50% təşkil edir.

# ƏLAVƏLƏR

## Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin hakimiyyəti dövründə qaçqın və məcburi köçkünlərə göstərilən qayğı və diqqət

### Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə qaçqın və məcburi köçkünlərə göstərilən qayğı və diqqət

**71.800.000 ₼** Dövlət Neft Fondundan ayrılmış vəsait

**2049** -dan çox fərdi yaşayış evi
**36** Uşaq bağçası
**4** Xəstəxana
**18** İnzibati bina
**20** Rabitə evi
**6** Musiqi məktəbi
**33** Məktəb binası
**20** Klub-icma mərkəzi
**29** Tibb məntəqəsi

### Prezident İlham Əliyevin hakimiyyəti dövründə qaçqın və məcburi köçkünlərə göstərilən qayğı və diqqət (2003-2019)

**Ayrılan maliyyə vəsaiti:**

**3.4** mlrd. manat - Dövlət büdcəsi
**2.3** mlrd. manat - Dövlət Neft Fondu
**1.4** mlrd. manat - Beynəlxalq maliyyə qurumları

**Yeni mənzillərə yerləşdirilən ailə sayı:**

| 2004-2008 | 2009-2013 | 2014-2019 |
|---|---|---|
| 10.401 | 15.125 | 15.636 |

**İnşa edilib:**

**866** Elektrik transformatoru
**227** Su anbarı
**217** Artezian quyusu
**84** Nasos stansiyası
**1** Elektrik yarımstansiyası
**156** Məktəb
**65** Uşaq baxçası
**63** Səhiyyə
**62** Mədəniyyət evi
**2** Olimpiya idman kompleksi

**Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün verilən mənzillər**

| 1997-2018 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| 6179 | 626 | 934 | 800 |

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az